# SÜLH TƏKLİFİNƏ "S-300" CAVABI

Ermənistan yenidən Fransa və ABŞ-dən gələn siyasi direktivləri etirazsız şəkildə yerinə yetirmək qərarına gəlib. Erməni dövlətinin gələcəyini təhdid altında qoyan bu mərkəzlərin siyasi qulu olmaq əvəzində isə mükafat olaraq Paşinyan məğlub olmuş ordusunu yenidən silahlandırmaq imkanı qazanır.

Paşinyanın çarəsizliyini bölgədə məkrli niyyətlərini həyata keçirmək üçün fürsətə çevirmək planları quran Makron Fransasının Cənubi Qafqazda yeni müharibə istəyi heç kimə sirr deyil. Bunun ən yaxşı yolunu isə Paris Ermənistana öldürücü müasir silahlar verməkdə görür.



SƏHİFƏ 5-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

# Kaspi

30 NOYABR ŞƏNBƏ 2024 № 46 (4197) Qiyməti - 40 qəpik www.kaspi.az






## "BİNOKL TAMAŞASI"NIN YENİ PERSONAJI

Varşava Bakı ilə münasibətlərdə İrəvanın qızışdırıcılıq vektoruna doğru gedir. Prezident Andjey Dudanın Naxçıvanla sərhədə gedərək Aİ missiyasının "binokl tamaşası"nda iştirak etməsi məhz bu cür qəbul edilir.

SƏHİFƏ 6-da




## QLOBAL PROBLEMİN ÇÖZÜMÜNDƏ BAKI MƏRHƏLƏSİ

COP29-un yekun sənədi beynəlxalq birliyin nailiyyəti və Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirilə bilər. Rəsmi Bakı davamlı olaraq qarayaxma kampaniyası təşkil edənləri də məğlub etməyi bacardı.

SƏHİFƏ 4-də

# VAŞİNQTON-BAKI MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ



Yanvarın 20-dən ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlayır. Bu mərhələdə Bakının qarşı tərəfdən gözləntiləri olduqca aydındır. Müstəqil siyasi kursa, yeni reallıqlara, ədalətli sülhün təmininə qarşılıqlı hörmət və ikili standartların ortadan qaldırılması.

### BAKIDAN VAŞİNQTONA EDİLƏN ZƏNG

Prezident İlham Əliyev noyabrın 25-də ABŞ Prezidenti Donald Trampa zəng edib. Trampı yenidən prezident seçilməsi münasibətilə təbrik edən dövlət başçısı qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir.

### GÜCLÜ LİDERLƏRİN ƏMƏKDAŞLIĞI

Ağ Evin yeni rəhbərinin siyasi portretinin analizi onu deməyə əsas verir ki, Tramp məhz güclü liderlərlə qarşılıqlı əlaqələrin inkişafında maraqlıdır. Ekspertlər də proqnozlaşdırırlar ki, Trampın şəxsi münasibətlərə mühüm əhəmiyyət verməsi Vaşinqtonun qarşıdakı dörd ildə xarici siyasət kursuna ciddi təsir göstərəcək.

SƏHİFƏ 3-də



## YATAQXANA PROBLEMİ İLƏ BAĞLI YENİ LAYİHƏ

Ali məktəblərin yataqxanalarının təmirinə özəl sektorun cəlbi planlaşdırılır. Bununla bağlı xüsusi layihə hazırlanıb. Layihənin icrası tələbələrin əsas problemlərindən birinin həllinə kömək edə bilər.

SƏHİFƏ 12-də



## ÇOXMƏRTƏBƏLİ BİNALARDA YANĞIN RİSKİ

Bakıda yenitikili binalarda ardıcıl yanğınlar baş verir. Səbəb bəzi vətəndaşların səhlənkarlığı, habelə məişətdə standartlara uyğun olmayan elektrik və qaz cihazlarından istifadədir.

SƏHİFƏ 13-də

"Habil Əliyevlə Əlibaba müəllim məni çağırdı..."

## "TAR MƏNƏ, MƏN DƏ TARA BAŞUCALIĞI GƏTİRDİK"



Bu il Xalq artisti, Milli Konservatoriyanın professoru Möhlət Müslümovun 70 yaşı tamam olub. Dekabrın 2-də Beynəlxalq Muğam Mərkəzində yubileyini sənət dostlarının əhatəsində qeyd edəcək. Görkəmli tarzən "Kaspi"yə müsahibəsində musiqiyə sevgisindən danışdı, görkəmli sənətkarlarla xatirələrini vərəqlədi, arzularından söhbət açdı...

SƏHİFƏ 8-9-da



## "ƏBƏDİ BAHAR ADASI"NDAN REPORTAJ

Əfsanəvi Ronaldonun vətəni Madeyra adası Atlantik okeanında qeyri-adi gözəlliyə malik arxipelaqdır. Ada faunanın ən nadir nümunələri üçün sığınacaq yeri, köç edən quşların vətənidir.

SƏHİFƏ 15-də



## "MANÇESTER SİTİ"NİN ÇƏTİN GÜNLƏRİ

Mövsümə yaxşı başlayan İngiltərə çempionu "Mançester Siti" son zamanlar formadan düşüb. Pep Qvardiolanın komandası altı oyundur, qələbəyə həsrətdir. Bu periodda ardıcıl beş məğlubiyyət də sığışıb.

SƏHİFƏ 16-da



Cəbrayıla növbəti köç reallaşıb

SƏHİFƏ 2-də



ABŞ-Türkiyə münasibətləri yeni müstəvidə

SƏHİFƏ 7-də



Mənəvi dünyamıza işıq saçan mütəfəkkir

SƏHİFƏ 11-də



Sosialyönümlü xərclər dinamik olaraq artır

SƏHİFƏ 10-da



Müasir dövrün bəlası

SƏHİFƏ 14-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# KOBAXİDZE: "DİPLOMATİK TƏDBİRLƏR GÖRÜLƏCƏK"

Avropa İttifaqının (Aİ) Gürcüstandakı səfiri ölkənin daxili işlərinə müdaxiləni dayandırmasa və nitqini dəyişdirməsə, diplomatik tədbirlər görüləcək. "Report" xəbər verir ki, bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə deyib. Onun sözlərinə görə, görünür, Avropa İttifaqının səfiri birbaşa seçki kampaniyasına qatılıb, radikal müxalifətə dəstək verib və hakim komandaya qarşı çıxıb. "Bu, Vyana Konvensiyasının və demokratik seçki prinsiplərinin ciddi pozulmasıdır. Bu səbəbdən onun dezinformasiya bəyanatı bizə o qədər də təəccüblü olmadı. Seçkilər ərəfəsində Gürcüstana Avropa İttifaqına inteqrasiya prosesinin dayandırıldığını bildirən Pavel Herçinski indi bildirir ki, bu proses, əslində, Gürcüstan hakimiyyəti tərəfindən dayandırılıb. Bir müddət biz belə hadisələrə diplomatik reaksiya verməkdən çəkinmişdik, amma hər şeyin bir hüdudu var və əgər biz davranışda dəyişiklik görməsək, gələcəkdə belə faktlara, o cümlədən Avropa İttifaqı səfirinə və digər müvafiq şəxslərə qarşı diplomatik reaksiya verəcəyik", - deyə Kobaxidze bildirib. O, konkret diplomatik addımların nə olduğu barədə qeyd edib ki, ilk növbədə, bu, səfiri Gürcüstanın Xarici İşlər Nazirliyinə çağırmaq olacaq.

Qeyd edək ki, Aİ-nin Gürcüstandakı səfiri Pavel Herçinski ölkənin Aİ-yə üzvlük prosesini dayandırmaq qərarını kədərli adlandırıb.



# SOCAR ABŞ ŞİRKƏTİ İLƏ ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİB

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə ABŞ-nin "DeGolyer and MacNaughton" şirkəti arasında geotermal enerji, karbonun tutulması və saxlanılması (CCUS) barədə fikir mübadiləsi aparılıb. "Report" şirkətə istinadən xəbər verir ki, bu barədə SOCAR prezidenti Rövşən Nəcəf və "DeGolyer and MacNaughton" şirkətinin sədri və baş icraçı direktoru Con Vallas ilə görüşdə müzakirələr olub.

Görüşdə SOCAR ilə "DeGolyer and MacNaughton" şirkəti arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Tərəflər həmçinin yataqların işlənmə planının optimallaşdırılması, ehtiyatların dəqiqləşdirilməsi, inteqrasiya olunmuş modellərin hazırlanması üzrə görülən işləri nəzərdən keçirib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# CƏBRAYILA NÖVBƏTİ KÖÇ



## Köçürülən ailələrin Cəbrayıl şəhərində yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb. Onlara yeni evlərin açarları təqdim olunub.

F. ABASOĞLU

Cəbrayıl şəhəri dünən 40 ailə olmaqla, daha 200 nəfərə qucaq açıb. Şəhərə qədəm qoyan ailələr doğma yurdlarına qovuşublar.

### BÜTÜN ŞƏRAİT YARADILIB

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Köçürülən ailələrin Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.

### AÇARLAR VƏ TƏLİMATLAR

Yeni gələn ailələrə evlərinin açarları da təqdim olunub. Cəbrayıla qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.



Açarların təqdim edilməsi mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Ailələr açarları təhvil alıb, evlərində məskunlaşıblar.

### "O QƏDƏR SEVİNİRƏM Kİ..."

Cəbrayıla köçürülən keçmiş məcburi köçkünlər qayıdış sevinclərini mətbuat nümayəndələri ilə bölüşüblər. "Cəbrayılımıza köçürük - 30 ildir həsrət qaldığımız rayonumuza. Şükür Allaha, torpaqlarımız azad olundu. Səbəbkarlar var olsun. Şəhidlərimizin ruhu şad olsun", - deyə keçmiş məcburi köçkün Səkinə Musayeva oxu.az-a bildirib. "O qədər ağır, o qədər çətin günlərimiz olub ki, dilə gətirməyə utanmışıq. Həmişə bircə bu günü arzulamışam. Biz Cəbrayılda çox gözəl yaşayırdıq. İndi də qayıdırıq, günlərimiz daha da gözəl olacaq. Allah Prezidentimizə uzun ömür versin, bizə daha yaxşı günlər nəsib olsun", - deyə o əlavə edib.

Cəbrayıl şəhərinə köçən digər sakin Kərimov deyib ki, bu rayonda anadan olub: "Orada yaşamışam, ömrümün çoxu - uşaqlığım, cavanlığım orada keçib. 30 illik həsrətdən sonra yenidən qayıdıram. Söz vermişəm, çatan kimi torpağımı bağrıma basacağam. Cəbrayılıma qurban olum. O qədər sevinirəm ki, heç danışa da bilmirəm".O, bu günü onlara nəsib edən vətən övladlarına minnətdarlığını bildirib, şəhidlərə rəhmət, qazilərə cansağlığı arzulayıb.

## 30 MİNƏ YAXIN İNSAN YAŞAYIR

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.



# VAŞİNQTON-BAKI MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ



Yanvarın 20-dən ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlayır. Bu mərhələdə Bakının qarşı tərəfdən gözləntiləri olduqca aydındır. Müstəqil siyasi kursa, yeni reallıqlara, ədalətli sülhün təmininə qarşılıqlı hörmət və ikili standartların ortadan qaldırılması.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Rəsmi Bakı ilə Ağ Evin yeni rəhbərliyi arasında ilk təmas artıq reallaşıb. Prezident İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa zəng edib. Donald Trampı yenidən Prezident seçilməsi münasibətilə təbrik edən dövlət başçısı qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir. İlham Əliyev vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlət başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib.

Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib. Donald Tramp ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini qeyd edib.

### İLKİN TƏMAS ARTIQ REALLAŞIB

Göründüyü kimi, artıq Ağ Evə qayıdışa hazırlaşan Tramp və onun administrasiyası qarşıdakı dörd ildə dünya siyasətində hansı rol oynayacağının, müxtəlif bölgələr, o cümlədən Cənubi Qafqazla bağlı hansı mövqenin sərgilənəcəyinin planlarını cızmaqdadır. Bu baxımdan ilkin təmasların bu siyasətin formalaşdırılmasına təsiri və rolu mühüm əhəmiyyət daşıyır. Xatırladaq ki, Prezident İlham Əliyev hələ bir müddət əvvəl - Şuşa mediaforumunda Azərbaycan üçün ən uyğun seçimin məhz Donald Tramp olduğunu demişdi. "Prezident Trampın prezidentliyi dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Bu əməkdaşlıq qarşılıqlı hörmət üzərində qurulmuşdur və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi", - Prezident İlham Əliyev bildirib.

Azərbaycanın ali rəhbərliyinin bu açıqlaması rəsmi Bakının qarşıdakı dörd ildə ikitərəfli münasibətlərin yenidən məhz bu prinsiplər - qarşılıqlı hörmət və dəstək üzərində qurulacağına ümid etdiyini göstərir.

### GÜCLÜ DÖVLƏT KONSEPSİYASI

Əslində, Donald Trampın əvvəlki siyasi kursunu davam etdirəcəyi onun seçkiqabağı kampaniya müddətində verdiyi bəyanatlarla da təsdiqlənir. Proqnozlar ondan ibarətdir ki, Tramp ilk prezidentliyi dövründə olduğu kimi, bu dəfə də Vaşinqtonun xarici siyasət kursunu ənənəvi Amerika modelindən çıxararaq özünəməxsus şəkildə davam etdirəcək. Bunun ilkin işartıları da görünməkdədir.

Trampın da siyasi doktrinasının əsasını güclü dövlət konsepsiyası təşkil edir. Hansı ki, bu konsepsiya Azərbaycanın ali rəhbərliyi tərəfindən illəridir reallaşdırılmaqdadır. Məhz bu konsepsiyanın uğurla reallaşdırılması Azərbaycanın beynəlxalq səviyyədə müstəqil xarici siyasət yürütməsinə, milli maraqların güclü şəkildə müdafiə olunmasına şərait yaradır. Yeni reallıqlar dünya güclərinin Bakı ilə hesablaşmaq məcburiyyətində qalmasını zəruri edir.

## XARİCİ SİYASƏTƏ TƏSİR EDƏN MÜHÜM AMİL

Təbii ki, bu siyasətin digər mühüm bir faktoru həm də güclü lider məfhumudur. Hansı ki, Prezident İlham Əliyev dörd il öncə Vətən müharibəsində bütün təzyiqlərə baxmayaraq dövlətimizin ərazi bütövlüyü və suverenliyini təmin etməklə xalqının, dövlətinin əsl Lideri olduğunu bütün dünyaya nümayiş etdirib. Bu amil dünyada ədalətin, ənənəvi dəyərlərin qorunması istiqamətində Azərbaycan modelinin nümunə kimi göstərilməsini şərtləndirir.

Bir çox dövlət başçıları, siyasi liderlər Azərbaycanın yürütdüyü məlum siyasətdən yararlanaraq beynəlxalq böhranın hökm sürdüyü mövcud şəraitdə öz dövlətçilik ənənələrini, varlıqlarını qorumaq uğrunda mübarizə aparırlar. Ağ Evin yeni rəhbərinin siyasi portretinin analizi onu deməyə əsas verir ki, Donald Tramp məhz güclü liderlərlə, öz dövlətinin inkişafı üçün müstəqil uğurlu siyasət yürüdən dövlət başçıları ilə qarşılıqlı əlaqələrin inkişafında, ünsiyyətdə olduqca maraqlıdır. Ekspertlər də proqnozlaşdırırlar ki, Trampın şəxsi münasibətlərə mühüm əhəmiyyət verməsi Vaşinqtonun qarşıdakı dörd ildə xarici siyasət kursuna ciddi təsir göstərən amillərdən biri olacaq.

## ERMƏNİSTAN RƏHBƏRLİYİ TƏLAŞ İÇİNDƏ

Azərbaycan üçün yeni Tramp dönəmini maraqlı edən həm də Ağ Evin yeni administrasiyasının İrəvan-Bakı danışıqlarında sərgiləyəcəyi mövqedir. İrəvanda bu istiqamətdə ciddi təlaş içindədirlər. Bir çoxları Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanı məhz demokratların siyasi əsəri hesab edirlər. ABŞ-də erməni lobbisinin Trampa yaxın və onun komandasında yer alacaq siyasi fiqurlarla təmasları intensivləşdirdiyinə dair məlumatlar yayılır. Lakin bu təmasların o qədər də uğurlu alınmadığı, Trampın siyasi baxışlarına ciddi təsir etmədiyi deyilir. İrəvanda bu qənaətdədirlər ki, Ermənistanı Rusiyaya qarşı mübarizədə özünün Cənubi Qafqazdakı qalasına çevirən demokratların bu illər ərzində göstərdikləri səylər Trampın qələbəsi ilə təhlükə altına düşüb. Çünki Trampın Ukrayna böhranına yanaşması demokratlardan köklü şəkildə fərqlənir ki, bu da Ermənistanın ABŞ üçün əhəmiyyətini yeni administrasiya dönəmində minimuma endirir. Bu amil Azərbaycanla sülh danışıqlarında da mühüm rol oynayacaq. Paşinyanın və erməni revanşistlərin sülhdən qaçmaq planlarının pozulacağı da istisna deyil. Çünki Tramp tarixə yeni müharibələr başladan lider yox, məhz müharibələri sonlandıran Prezident kimi düşmək istəyir.

Göründüyü kimi, yanvarın 20-dən ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlayır. Bu mərhələdə Bakının qarşı tərəfdən gözləntiləri olduqca aydındır. Müstəqil siyasi kursa, yeni reallıqlara, ədalətli sülhün təmininə qarşılıqlı hörmət və ikili standartların ortadan qaldırılması. Trampın bu gözləntiləri hansı dərəcədə doğruldacağını isə zaman göstərəcək.

# Qlobal problemin çözümündə BAKI MƏRHƏLƏSİ



**Foto:** Tapdıq Abdullayev - Global Photostock

COP29-un yekun sənədi beynəlxalq birliyin nailiyyəti və Azərbaycanın növbəti diplomatik uğuru kimi qiymətləndirilə bilər. Rəsmi Bakı davamlı olaraq qarayaxma kampaniyası təşkil edənləri də məğlub etməyi bacardı.



**RÜSTƏM QARAXANLI**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni iqlim hədəfini qəbul etməyə müvəffəq olması ona qarşı aparılan təbliğatın iflasa uğramasının şübhə doğurmayan göstəricisidir. COP29-da qəbul edilən sənədə əsasən, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 300 milyard dollar vəsait ayırmaları təmin olunacaq. 2035-ci ilədək bu məbləğ tədricən 1,5 trilyon dollara çatdırılacaq. Bu göstəricinin əvvəlki 100 milyardlıq həddən 300 milyarda çatdırılması Bakıda baş tutan qlobal tədbirin əldə etdiyi danılmaz nailiyyətdir.

### MƏCBURİ ETİRAF

Yüksək təşkilatçılıq, dünya birliyinin hədsiz marağı və iştirakçıların kütləviliyi fonunda COP29-a ev sahibliyi edən Azərbaycana qarşı aparılan qaralama kampaniyasının uğursuzluğu ona sponsorluq edən dövlətlərin özləri tərəfindən də etiraf edilir. Tədbir başa çatandan sonra rəsmi Vaşinqtonun Prezident Co Baydenin adı ilə xüsusi bəyanat yayması və COP29-un nəticələrini alqışlaması, yaxud Avropa İttifaqının İqlim məsələləri üzrə komissarı Vopke Hukstranın açıqlaması həm okeanın o tayında, həm də Brüsseldə Bakı konfransının uğurunun həzm edilməyə başlandığını göstərir. Əlbəttə ki, məcburən həzminin...

COP29-un bu nailiyyətini ev sahibliyi edən Azərbaycanın inadkar və ardıcıl iradəsinin bəhrəsi də hesab etmək olar. Çünki düz bir ildir ölkəmizə qarşı sürdürülən qarayaxma kampaniyası həm də COP29-un yekun sənədini sabotaj etməyə yönəlmiş niyyət idi.

### QƏRBİN XƏSİSLİYİ

İqlim dəyişilməsi və ekologiyanın korlanması kimi qlobal problemlər böyük ölçüdə elə həmin inkişaf etmiş dövlətlərin fəaliyyətinin nəticəsidir. Böyük sənaye potensialına malik, açıq okeanda nüvə sınaqları keçirməyə qadir ABŞ və Fransa kimi dövlətlərin bu qarayaxma kampaniyasının önündə getmələri bəşəriyyət üçün dağıdıcı təhlükəyə malik qlobal problemin çözümünə vəsait ayırmaq istəməmələrindən irəli gəlir. Halbuki həm Vaşinqtonun demokratlar administrasiyası, həm Makron hökuməti, həm də Brüssel özlərini sanki problemin müqəddəratına məsul yeganə və əsas qüvvələr qismində nümayiş etdirməyə çalışırlar.



Belə bir gerçəklikdə iştirakçıların 300 milyard dollarlıq göstəricidə bərqərar olmaları həqiqətən də tarixi hadisədir. Şübhə yoxdur ki, qlobal Bakı konfransı gələcəkdə həllinə ümid edilən problemin çözülməsi istiqamətində tarixi mərhələ kimi xatırlanacaq.

## HƏDƏF YEKUN SƏNƏD İDİ

COP29-un iqlim dəyişikliyi ilə mübarizə prosesində tarixə düşdüyü bir gerçəklikdə Azərbaycana qarşı aparılan qərəzli və çirkin kampaniyanın bir neçə mərkəzdən idarə olunduğu və fərqli məqsədlər güddüyü aydın olur. ABŞ-nin demokratlar administrasiyasının, Makron Fransasının və Aİ-nin hədəfi Azərbaycanın səmimi təşəbbüslərini gözdən salmaqla qlobal konfransın gedişini pozmaq, nəticə etibarilə qəbul ediləcək qərarı əhəmiyyətsiz və təsirsiz etmək idi. Rəsmi Vaşinqtonun və Parisin ABŞ-nin qanunverici orqanında təmsil olunan senator və konqresmenlərdən, habelə beynəlxalq media qruplarından istifadə etməklə bir ilə yaxındır sürdürdükləri ləkələmə cəhdlərinin son ünvanı məhz COP29-un yekun sənədi olduğu şübhəsizdir.

Bütün bunlardan rəsmi Bakı kifayət qədər məlumatlı olub. Konfransın bitməsindən sonra Azərbaycan ictimai rəyinin və beynəlxalq birliyin də baş verənlərdən agah olması lazımdır. Avropa İttifaqı təmsilçisi Ursula fon der Lyayenin gülünc bəhanələrlə Bakıya gəlməməsi, Almaniyanın baş naziri Olaf Şoltsun ölkəsində hökumət koalisiyasının dağılmasını səbəb gətirərək anons edilmiş səfərini təxirə salması sıradan hadisələr deyildi. Reallaşmamış bu səfərlərin də əsas hədəfi COP29-un yekun sənədinə qarşı hesablanmışdı. Almaniya XİN tarixinin ən uğursuz rəhbəri Angelina Berbokun COP29-un son günlərində Bakıya gəlib iqlim dəyişilməsindən daha çox siyasi mövzularda bəyanat verməsini kollektiv Qərbin düşünülmüş planının yekun addımı saymaq olar.

## AZƏRBAYCANIN NÖVBƏTİ BEYNƏLXALQ DİPLOMATİK QƏLƏBƏSİ

Qərbin Azərbaycana qarşı qərəzli mərkəzlərinin apardıqları kampaniya ilk gündən siyasi məqsədlər daşıyıb. Niyyət COP29-un missiyası ilə yanaşı Bakının namizədliyini də gözdən salmaq olub. İrəli sürülən iddiaların məntiqsizliyi, iqlim mövzusu ilə əlaqəli olmaması bu mərkəzlərin başladıqları kampaniyanın dayandırılması müqabilində Azərbaycandan hansısa siyasi güzəşti almağa, yaxud Bakının bir sıra məsələlərlə bağlı durduğu prinsipial mövqelərdən geri çəkilməyə məcbur edilməsinə hesablanmışdı. Bu kontekstdə təbii ki, gözlər önünə gələn ilk məqam Ermənistanla Azərbaycan arasında yekun sülhün imzalanması məsələsidir. ABŞ və Aİ-nin belə bir razılaşmaya COP29-dan öncə və ya onun gedişatında nail olunması üçün basqılar etməsinin əsas səbəbi İrəvanı son 30 illik işğal cinayəti və onun fəsadlarının məsuliyyətindən qurtarmaq idi.


Co Bayden

Tələsik sülhün məhz iqlim konfransı fonunda əldə edilməsi bir sıra merkantil hədəflərə doğru yol aça bilərdi. Məsələn, yeni seçkilər ərəfəsində demokratlar administrasiyasının beynəlxalq siyasi nailiyyəti bu gözləntilərdən biri ola bilərdi.

Nəhayət, Ermənistan və dünya erməniliyi də öz "pay"ını qoparmaq gözləntisində idi: Azərbaycana qarşı ərazi iddialarının təsbit olunduğu Ermənistan konstitusiyasında dəyişiklik edilmədən imzalanan sülh ermənilərə gələcəkdə Azərbaycana qarşı təkrar ərazi iddiası üçün yeni imkan ola bilərdi. Bir neçə aydır "erməni əsirləri"nin azad edilməsi tələbləri ilə müşayiət olunan avantüra məhz COP29 hesabına İrəvanın ümidlərinin reallaşdırılmasına hesablanmışdı. Bu baxımdan, qlobal konfransın yekun sənədinin qəbulu beynəlxalq birliyinin nailiyyətidirsə, Azərbaycana qarşı qarayaxma kampaniyasının təşkilatçılarının əliboş qalmaları da rəsmi Bakının daha bir parlaq diplomatik qələbəsidir.


Vopke Hukstra

İRƏVANIN SÜRƏTLƏ SİLAHLANMASI MÜHARİBƏ EHTİMALINI ARTIRIR

# SÜLH TƏKLİFİNƏ "S-300" CAVABI



Qərb yenidən Cənubi Qafqazı alov topuna döndərmək planları qurur. Ermənistan rəhbərliyi də Makron Fransasının bu qərəzli təşəbbüslərini can-başla dəstəkləyir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakı və İrəvan arasında sülh danışıqları ilə bağlı təmasların dekabr ayında bərpa olunacağı, yekun saziş üzərində diplomatik müzakirələrə yenidən start veriləcəyi bildirilirdi. Lakin İrəvan sülh təşəbbüslərinə yenə də erməni xislətinə uyğun cavab verməkdədir. Söhbət şərti sərhəddə vəziyyəti gərginləşdirə biləcək yeni hərbi təxribatlara hazırlıqdan gedir.

### PAŞİNYANIN İSTERİKASI

Təəssüf doğuran məqam ondan ibarətdir ki, Ermənistan rəhbərliyi yenidən sülh prosesini dəfələrlə pozan Fransa və ABŞ-dan gələn siyasi direktivləri etirazsız şəkildə yerinə yetirmək qərarına gəlib. Erməni xalqının, dövlətinin gələcəyini təhdid altında qoyan bu mərkəzlərin siyasi qulu olmaq, əmrlərə sözsüz itaət etmək əvəzində isə mükafat olaraq Nikol Paşinyan hökuməti məğlub olmuş, darmadağın edilmiş ordusunu yenidən silahlandırmaq imkanı qazanır. Əslində Paşinyanın isterikası özünü onun qeyri-adekvat davranışlarında da büruzə verir. Saqqalını qırxması, güc strukturlarının rəhbərlərini bir mesajla işdən çıxarması, məmurların xidməti maşınlarını əllərindən alması, siyasi rəqiblərinə qarşı amansız repressiyası... Bütün bu addımlar son illərdə Paşinyanın reytinqinin həddindən artıq aşağı düşməsi və iqtidarına təhlükə yaranması ilə əsaslandırılır. Paşinyan hökuməti bu vəziyyətdən çıxış yolunu sərhəddə təxribatlara əl ataraq Azərbaycan üzərində kiçik də olsa qələbə qazanmaqda görür. Ancaq bu təşəbbüslərə cavab olaraq, Bakının adekvat addımlarının Ermənistan üçün hansı nəticələr doğurduğu təcrübəsi heç də uzaq olmayan yaxın keçmişdə dəfələrlə müşahidə edilib.

### ERMƏNİSTANA ÖTÜRÜLƏN SİLAHLAR

Paşinyanın çarəsizliyini bölgədə məkrli niyyətlərini həyata keçirmək üçün fürsətə çevirmək planları quran Makron Fransasının Cənubi Qafqazda yeni müharibə istəyi heç kimə sirr deyil. Bunun ən yaxşı yolunu isə Paris Ermənistana öldürücü müasir silahlar verməkdə görür. Son məlumatlara görə, Yunanıstan Ermənistana Rusiya istehsalı olan "S-300" zenit-raket kompleksləri, habelə quru qoşunları üçün nəzərdə tutulan "TOR-M1" və "OSA" zenit kompleksləri göndərəcək. Burada ad Yunanıstan olsa da, planın Makrona aid olduğu aşkardır. Çünki silahlar bir qədər əvvəl Ermənistan ordusuna silah-sursat veriləcəyini bəyan edən Fransa ilə əməkdaşlıq çərçivəsində tədarük ediləcək. İrəvanın Paris vasitəsi ilə əldə etdiyi, milli maraqlarımıza təhdid yaradan hərbi sursatlar bununla da yekunlaşmır. Bu ilin iyununda Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki ölkə arasında "CAESAR" özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanmışdı. Bu siyahıya "Ground Master" radarları və gecəgörmə cihazları, üç ədəd GM200 radar sistemi, 50 ədəd "Bastion" tipli zirehli texnika, "Mistral" qısa mənzilli hava hücumundan müdafiə sistemləri də daxildir. İrəvanın silahlanmaq üçün üz tutduğu digər bir istiqamət isə Hindistandır. Bu ölkə ilə hərbi əməkdaşlığın dəyərinin artıq 600 milyon dollara çatdığı bildirilir.



## BÖLGƏNİ ALOV TOPUNA ÇEVİRMƏK İSTƏYİRLƏR

Əslində Qərbin Cənubi Qafqazı yenidən alov topuna döndərmək planları həm də onun beynəlxalq səviyyədə ciddi uğursuzluqlara məruz qalmasının nəticəsi kimi dəyərləndirilə bilər. Söhbət onların Ukraynada üç ildən artıqdır davam edən qanlı müharibədə istədiklərini əldə edə bilməmələrindən gedir. ABŞ-da Donald Trampın yenidən prezident seçilməsi isə Makron Fransası və onun Avropadakı əlaltılarını ciddi təşvişə salıb. Çünki yanvarın 20-dən sonra Avropanın Ukrayna cəbhəsində Rusiya qarşısında tək qalacağı ehtimalı böyükdür. Bu ssenari çərçivəsində "qoca qitə"nin sahib olduğu indiki imkanlar onun ağır məğlubiyyətinin qaçılmaz olacağı ehtimalını gücləndirir. Çıxış yolunu Kreml üçün mühüm əhəmiyyət daşıyan digər bölgələrdə yeni müharibə ocaqları yaratmaqla görürlər. Bu siyasətin əsas halqalarından biri də, təəssüf ki, Cənubi Qafqazdır. Daha doğrusu, Azərbaycan və Gürcüstanda istədiyini əldə edə bilməyən Qərbin əsas dayaq nöqtəsi olan Ermənistan bu planı can-başla yerinə yetirmək arzusunu ortaya qoyur.

### İRƏVANIN MÜHARİBƏ PLANI

Hərbi cəhətdən müasir və öldürücü silahların təhvil verilməsi, mülki missiya adı altında Azərbaycanın sərhəddəki mövqelərini müşahidə edərək kəşfiyyat məlumatlarının toplanılıb Ermənistana təqdim edilməsi, qısa müddətdə darmadağın edilmiş erməni ordusunun şəxsi heyətinin müxtəlif təlimlər və kuratorlar vasitəsi ilə yenidən formalaşdırılması - bütün bunlar İrəvanın əslində sülhə yox, məhz müharibəyə hazırlaşdığından xəbər verir.

## BAKIDAN İRƏVANA XƏBƏRDARLIQ: "HƏLƏ Kİ, GEC DEYİL"

Qeyd olunanların yekunu olaraq, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi qələbəmizin simvoluna çevrilmiş Zəfər parkının açılış mərasimindəki çıxışında İrəvana xəbərdarlığını xatırlatmaq kifayətdir. Dövlət başçısı bildirib ki, mövcud vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər: "Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün, onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır, mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır. Hələ ki, gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar".

Bəli, İrəvanın hələ də ədalətli sülh üçün vaxt və imkanı var. Əks təqdirdə olacaqlar və nəticələr məlumdur.

Polşa Prezidenti Andjey Dudanın Azərbaycan-Ermənistan sərhədinə gəlişindəki təxribat izləri

# "BİNOKL TAMAŞASI"NIN YENİ PERSONAJI

Varşavanın Bakı ilə münasibləri İrəvanın qızışdırıcılıq hərəkətlərinə qurban verən istiqamətdə gedir. Prezident Andjey Dudanın Ermənistana səfəri zamanı Naxçıvanla sərhədə gedərək Aİ missiyasının "binokl tamaşası"nda iştirak etməsi məhz bu cür qəbul edilir.



AQŞİN KƏRİMOV



Polşa Prezidenti Andjey Dudanın Ermənistana səfəri Azərbaycan tərəfindən həm diplomatik, həm də ictimai-siyasi mühitdə etirazlarla qarşılandı. Çünki Polşa prezidentinin İrəvanda həyata keçirdiyi proqram Azərbaycanın dövlət və legitim təhlükəsizlik maraqlarına zərbə kimi qiymətləndirilir.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatı, Polşanın ölkəmizdəki müvəqqəti işlər vəkili Mixal Qreçilonun XİN-ə çağırılması bu fikri təsdiqləyir ki, Varşavanın Bakı ilə münasibləri İrəvanın qızışdırıcılıq hərəkətlərinə qurban verən istiqamətdə gedir.

### NİYYƏTİ GİZLƏTMƏK ÜÇÜN DÜŞÜNÜLƏN TEXNİKİ MƏQAMLAR

Ermənistanda səfərdə olan Polşa Prezidenti Andjey Duda noyabrın 26-da İrəvanda erməni həmkarı Vaaqn Xaçaturyanla birgə mətbuat konfransında Polşanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına töhfə verməyə hazır olduğunu bildirib. O, həmçinin Ermənistanın baş naziri Nikol Paşinyan və spiker Alen Simonyanla görüşlər keçirib.

Texniki yöndən yanaşılsa, Polşa dövlət başçısının Ermənistan üzrə qrafikini ikitərəfli əlaqələrə xüsusi diqqət yetirmək və xarici siyasət münasibətlərini əks etdirən qarşılıqlı münasibətlər kimi başa düşmək olardı.

İkinci texniki bir detal bundan ibarətdir ki, 2025-ci ilin birinci yarısında Avropa İttifaqına prezidentlik edəcək Polşa Azərbaycan-Ermənistan münasibətlərinin perspektiv strukturlaşdırılmasına cavabdehlik daşıyan tərəf kimi özünü göstərməyə çalışır.

Lakin Dudanın İrəvandan sonra Naxçıvanla sərhədə - Arazdəyənə gedərək Aİ missiyasının "binokl tamaşası"nda iştirak etməsi həmin texniki məqamların yalnız görüntü olaraq prioritetləşdirilməsini göstərdi.

Daha alt qata endikcə isə Polşanın əslində Aİ-yə sədrliyi dövründə Ermənistanın regional maraqlarının şişməsi üçün koordinasiya həyata keçirəcəyi şübhələri ilə üzləşmək mümkündür. Belə olmasa idi, rəsmi Bakının bəyanatları daha yumşaq mətnlə hazırlanar və ya ümumiyyətlə Dudanın İrəvan proqramına reaksiya verilməzdi. Amma rəsmi Bakı bəyanat verirsə və müvəqqəti işlər vəkili XİN-ə çağırılırsa, bu, artıq ciddi məsələdir.



## POLŞA BAŞQA NƏ İSTƏYİR?

Polşa Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması prosesinə səhv yoldan daxil oldu. Hiss etdirmək istədi ki, o, Bakı-İrəvan sülh gündəliyindəki danışıqlarda Aİ-nin sədri kimi vasitəçilik missiyası ilə çıxış edə bilər. Amma elə ilk andan etibarən özünün təqdimatını verdi və Azərbaycanın təhlükəsizliyinə yönəlmiş təhdidlərə qarşı cəbhədə ola biləcəyini göstərdi. COP29 çərçivəsində Azərbaycana səfər edən Dudanın Ermənistana ayrıca proqramla getməsi də bu fikrin diplomatik-siyasi şəkildə təsdiqi kimi başa düşülməsini asanlaşdırır. Bundan sonra Polşa ən azından diplomatik-siyasi tarazlığı saxlamaqdan ötrü Azərbaycana da səfər epizodu hazırlamalıdır. Üstəlik, bu qədər səmimidirsə, Polşa prezidenti hətta Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etməli və bu torpaqların Ermənistanın işğalı nəticəsində hansı əziyyətlər çəkdiyini görüb bunu bəyan etməlidir. Əks təqdirdə, Polşa Azərbaycan əleyhinə hərəkət üçün imtiyaz qazanmaq istədiyini və Bakı-İrəvan sülh gündəliyini pozmaq istiqamətində addımlar atacağını təsdiqləmiş olacaq. Azərbaycan isə Ermənistanın Aİ-yə üzv bəzi dövlətlərin, o cümlədən Polşanın hərəkətlərindən vəcdə gəlib təxribat ssenarilərinə getməsinə cavablar hazırlamaq hüququnu özündə saxlayır.



## AZƏRBAYCANIN MÖVQELƏRİNƏ YÖNƏLƏN CƏHDLƏR FİASKOYA UĞRAYACAQ

Aİ-nin Ermənistandakı missiyasının fəaliyyətini də buraya əlavə etsək, Azərbaycanın Polşanın davranışları fonunda missiyaya qarşı əks-həmlə prosedurlarını müəyyən etməsi daha qaçılmaz hal alacaq. Birincisi ona görə ki, missiya sərhəd təhlükəsizliyinin təminină deyil, Ermənistanı Azərbaycana qarşı təkrar qarşıdurma xətlərinə doğru salmaqda maraqlı tərəf kimi görünür. İkincisi, missiya hərbi kəşfiyyat kimi fəaliyyət göstərir. Çünki binoklla tez-tez Azərbaycan Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin mövqelərini müşahidə etmək məlumat toplayıb onu İrəvanla bölüşməyin göstəricisidir. Əlavə olaraq Ermənistan bunları Qərblə artan əlaqələri sayəsində hərbi faydaya çevirmək gündəliyinin davamı kimi nəzərdən keçirir. Bu amil ümumilikdə regionda Azərbaycanı ağır itkilərlə üzləşdirmək üçün istifadə edilən metodların bir hissəsidir. Ancaq bütün hallarda Azərbaycanın geosiyasi mövqelərinə və qüvvələr müstəvisindəki liderliyinə xələl gətirmək cəhdləri fiasko ilə nəticələnəcək. Çünki Ermənistanın strateji itkilərini kompensasiya etmək üçün girdiyi atmosfer yanlışdır və o, ən təhlükəli anlarda tək buraxıla bilər. Başqa tərəfdən, Azərbaycan həm strateji müttəfiqi Türkiyə, həm Qərb, həm Rusiya, həm də Çinlə strateji tərəfdaşlıq əlaqələri ilə İrəvanın əlində olan-qalanları almaq qabiliyyətini inkişaf etdirir. Üçüncüsü, Azərbaycanın hərbi qüdrəti son sözü deyən aktdır.

# ABŞ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ YENİ MÜSTƏVİDƏ

Donald Trampın ABŞ prezidenti seçilməsi Türkiyədə də geniş müzakirə olunur. Ərdoğan yeni prezidentin illər əvvəl ona verdiyi vədləri yerinə yetirəcəyinə ümid etmək istəyir.



AZƏR NURİYEV



Donald Trampın ikinci dəfə prezident seçilməsi və bu postda atacağı addımlar ABŞ-dən çox digər ölkələrdə geniş müzakirə olunur. Qardaş Türkiyə də Trampın prezidentliyindən çox şey gözləyir.

### ZİDDİYYƏTLƏRLƏ DOLU BİRİNCİ DÖNƏM

Türkiyə Trampın qayıdışından sevinməli, yoxsa narahat olmalıdır? Suala cavab tapmaq hələ çətindir. Onun prezidentliyinin birinci dönəmində iki ölkə arasında yaşananlar tez-tez xatırlanır. Daha dəqiq desək, ziddiyyətlər çox olub. Məsələn, 2018-ci ildə Trampın sosial mediada anti-Türkiyə təhdidləri Ankarada kəskin devalvasiyaya səbəb olmuşdu. Bundan əlavə, Tramp Rəcəb Tayyib Ərdoğanı “o, çox yaxşı tanıdığım, vətənini sevən və dediyi kimi, ölkəsi üçün düzgün işlər görən adam" adlandırıb. İkinci müddətdə də bu cür bəyanatların veriləcəyi inandırıcı görünür. Təqdir olunası hal ondan ibarətdir ki, Türkiyə prezidenti Donald Trampı ilk təbrik edənlərdən olub.

### XOŞ OLMAYAN MESAJ

ABŞ ilə Türkiyə arasında problemlər isə az deyil. Türkiyə ABŞ-dən qoşunlarını Suriyadan çəkməsini və PKK-ya bağlı güclərə dəstəkdən imtina etməsini istəyir. Tramp birinci prezidentliyi dövründə Ərdoğanın bu istəklərini yerinə yetirəcəyini vəd etmişdi, ancaq bu, baş vermədi. Ərdoğan Trampın illər əvvəl verdiyi vədi bu dəfə yerinə yetirəcəyinə ümid etmək istəyir. Ancaq Trampın andiçmə mərasiminə PKK-nın Suriya qanadının rəhbərliyinin də dəvət edilməsi barədə xəbərin yayılması Ankaraya xoş olmayan mesajdır.

Bütün bunların fonunda Ərdoğan Trampın Ankaraya səfər edəcəyinə ümidvardır. Bildirib ki, Tramp Türkiyə ilə bağlı müsbət bəyanatlar verib və bu səbəbdən də ümid edir ki, səfər dəvəti qəbul ediləcək.

### YENİ KOMANDA ANKARAYA NƏ VƏD EDİR?

Trampın komandasına seçdiyi şəxslərin Türkiyə ilə münasibətlərə təsir edəcəyi də şəksizdir. Məsələn, o, Mark Rubionu dövlət katibi vəzifəsinə təqdim edib. Rubio Türkiyə əleyhinə çıxışları ilə yaddaqalan biridir. Bu şəxs Suriya böhranından tutmuş digər mövzulara qədər həmişə Ankaranın əleyhinə olub. Pentaqona rəhbər təyin ediləcək Pit Heqsetin, milli təhlükəsizlik müşaviri Mayk Voltsun isə Türkiyəyə münasibətləri hələlik tam bəlli deyil. Trampın dörd min nəfərlik yeni Prezident Administrasiyasının başında isə yəhudi milyarder Hovard Lutnik duracaq. Kabinetində milyarder İlon Mask və Milli Kəşfiyyat Direktoru Tulsi Qabbard kimi bir çox nazir sülh tərəfdarıdırlar. Prezident Ərdoğan bildirib ki, Trampın kabinetində kimlərin olduğunu, yanaşma tərzlərini analiz edirlər, hazırlıqları da ona görədir: “Əsas olan onların hakimiyyət məsuliyyətini üzərlərinə götürdükdən sonra etdikləridir. Biz Trampın müharibələri bitirməsi ilə bağlı dediklərinə inanmaq istəyir, bu istiqamətdə addımlar atmasını gözləyirik”.



## TRAMP ANTİTÜRK XƏTTİ GÖTÜRMƏYƏCƏK

Əksəriyyət hesab edir ki, Tramp antitürk xətti götürməyəcək. Onun qondarma erməni soyqırımı haqda danışmayacağı da gözlənilir. Ümumiyyətlə, Tramp "erməni kartı" ilə işləyən siyasətçi deyil. O ki qaldı Trampın Suriyadakı YPG və PYD qüvvələrini dəstəkləməsinə, düzdür, bu qruplaşmalara ABŞ maliyyə ayırır. Lakin hər şey yanvarın 20-sindən sonra bəlli olacaq. Türkiyə prezidenti böyük ehtimalla andiçmədə iştirak edəcək və Trampla görüşəcək. Amma ABŞ Suriyada PKK ilə əməkdaşlığı davam etdirərsə, Türkiyə ilə münasibətlərindəki problemlər davam edəcək.

### ƏRDOĞAN PUTİN, ZELENSKİ VƏ TRAMPLA DANIŞA BİLƏCƏK YEGANƏ LİDERDİR

Trampın qələbəsi Türkiyəni Ukrayna münaqişəsinin həllinə yönəlmiş vasitəçilik səylərini aktivləşdirməyə sövq edə bilər. Yada salaq ki, Trampın seçki kampaniyası zamanı əsas vədlərindən biri Ukraynadakı münaqişəyə son qoymaq olub. Putin Trampın qalib gələcəyini gözləyirdi və ABŞ-nin dəstəyini itirmiş Zelenski ilə sülh danışıqları masasına oturmağa ümid edirdi. Bu proses Prezident Ərdoğanı ön plana çıxara bilər, çünki o, Putin, Zelenski və Trampla danışa biləcək yeganə liderdir.

Hesab edilir ki, Ukraynanın gələn il müharibəni bitirmək üçün hər cür şansı var. Elə Zelenski də bunun yanvarda mümkün olacağını qeyd edib. Öz növbəsində Türkiyə prezidenti də Ukraynadakı münaqişənin tezliklə həllinin mümkünlüyünə əmin olduğunu bildirib, lakin bir şərtlə ki, Donald Trampın administrasiyası bunun üçün siyasi iradə nümayiş etdirsin. Hesab edilir ki, ABŞ başda olmaqla, bəzi Qərb ölkələrinin Ukraynada müharibəyə son qoymaq səyləri bu münaqişənin həllini sürətləndirəcək. Türkiyə hesab edir ki, daha çox silah, bomba və xaos bu müharibəni bitirməyəcək. Əksinə, dialoq, diplomatiya və razılaşma sülhə qapı açır. Reallıq odur ki, Türkiyə hər iki tərəfi danışıqlar masasına oturtmağa müvəffəq olub. Bunu dəfələrlə edib. “Biz bütün səylərimizi sülhün əldə edilməsinə yönəltmişik və bu istiqamətdə işimizə davam edəcəyik", - deyə Türkiyə lideri qeyd edib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

XALQ ARTİSTİ, MİLLİ KONSERVATORİYANIN PROFESSORU, TARZƏN MÖHLƏT MÜSLÜMOVLA HƏYAT VƏ SƏNƏT SÖHBƏTİ



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# “TAR MƏNƏ, MƏN DƏ TARA BAŞUCALIĞI GƏTİRDİK”



**Möhlət Müslümov:** “Televiziyalarda musiqini bilən redaktor yoxdur. Ona görə efirlərdən qaçmağa çalışıram. İdman şərhçisini və ya bir başqa sahənin adamını musiqi redaksiyasına rəhbər təyin edirlər”.

Bu il Xalq artisti, Milli Konservatoriyanın professoru Möhlət Müslümovun 70 yaşı tamam olub. Dekabrın 2-də Beynəlxalq Muğam Mərkəzində yubileyini sənət dostlarının əhatəsində qeyd edəcək.

Görkəmli tarzən “Kaspi”yə müsahibəsində musiqiyə sevgisindən danışdı, görkəmli sənətkarlarla xatirələrini vərəqlədi, arzularından söhbət açdı...

## “İLLƏR UÇUB GETDİ...”

**● Möhlət müəllim, yubileylər, xüsusən 70 illik ömür yolu geri dönüb illəri vərəqləmək üçün əsl fürsətdir. Bədahətən “Bəstənigar” yaratdığınız vaxtdan çox keçib. O uşaq sevginiz, sənətə marağınız necə, dəyişibmi?**

● 70 yaş heç bilmirəm necə gəlib çatdı. Özüm-özümə də bu sualı verirəm. Düzdür, öz həyatımı yaşamışam, xalqımın qulluğunda durmuşam, musiqisinə, incəsənətinə xidmət etmişəm. Amma başım qarışdı tara, musiqi və muğamları öyrənməyə... Günün 12 saatını məşq edərdim. Deyirəm, heç mən yaşamamışam ki... Gənclik vaxtı nə əyləncə yeri, nə kinoteatr tanıyırdım. Boş vaxtım olan kimi, tarda məşq edirdim. Asəf Zeynallı adına məktəbdə təhsil alanda oranın su basmış zirzəmisi vardı. Orada dərs keçməyə qoymurdular, işığı da yox idi. Evdən neft lampası gətirib, boş dərs saatlarında zirzəmiyə düşüb lampanı yandırır, məşq edirdim. Halbuki ətrafda “Araz” kinoteatrı vardı, kinoya baxmağa gedə bilərdim. Amma bu sənətə o qədər sevgim vardı ki, vaxtımı tara, musiqiyə sərf edirdim. Ona görə də mənə elə gəlir ki, 70 ilin bəlkə 10 ilini ailəm, valideynlərim üçün yaşamışam. İllər uçub getdi...

**● İllər uçdu, amma sizə az şey qazandırmadı...**

● Qazancım o oldu ki, tar mənə, mən də tara başucalığı gətirdik. Böyük bir tarçalanlar ordusu yetişdirdim. İndi çoxu əməkdar, xalq artsitləridir. Qiyabi tələbələrim də çoxdur. Sosial şəbəkələrdə gənc oğlan və qızlar var ki “ifamdan razısınızmı?”, “necə gəlib Azərbaycanda təhsil alım?” deyə ifalarını mənə göndərirlər. Baxıb görürəm ki, onlar bircə gün də məndən dərs almayıblar, amma məni təqlid edirlər. Burada Cənubi Azərbaycandan təhsil alan tələbələrim oldu, indi İranda böyük məktəb açıblar. Hətta mənim adıma muğam üçlüyü də yaradıblar. İranda muğamı çox sevirlər. Orada tarın xəstələri var. Məşhur cərrah var ki, tar çalır. Evdə başlarının üstündə tar asırlar. Mən oraya gedəndə küçədə rahat gəzə bilmirəm. “Gəl, arzumuzdu, toyda ifa et...” deyirlər. Bu da məni sevindirir ki, əməyim boşa getməyib. 70 ildə bunları da gördüm...

> *Gitaranın tüğyan etdiyi bir vaxtda tarı sevdirmək lazım idi. Mən öz tərzimdə bədahətən yeniliklər tapırdım, amma tənqidlərlə qarşılaşırdım.*

## “SƏN QORXMA, GEDƏK MƏŞQ EDƏK...”

**● Siz görkəmli xanəndələrlə, ifaçılarla çiyin-çiyinə işləmisiniz, onları müşayiət etmisiniz, birgə səhnəyə çıxmısınız...**

● Hərdən fikirləşirəm: yəqin o insanlar gənclərə inanırdılar. 21 yaşım vardı, konservatoriyaya qəbul oldum. Rəhmətlik Elman Bədəlov mənimlə bir kursda oxuyurdu. Məndən yaşca çox böyük idi, amma gec qəbul olmuşdu. Bir gün dedi ki, Əbülfət Əliyev ifana televizorda baxıb, səninlə “Humayun” oxumaq istəyir. Dedim, nə danışırsan, o hara, mən hara, qorxuram, ayaqlarım əsər. Üstündən bir ay keçdi, gəlib məni apardı. O görüş heç yadımdan çıxmır. Əbülfət müəllim “Şəhriyarı tanıyırsan” deyə soruşdu. Dedim, yox. “Onun bir qəzəli var: “Sızlayır əhvalıma sübhə qədər tarım mənim...” Mən sənlə “Humayun” oxuyacağam, bu qəzəli də ifa edəcəyəm. Sən qorxma, gedək məşq edək, qoy görsünlər ki, mən gənc bir oğlanla oxuyuram...” Bəlkə də o təklif mənim yolumda işıq yandırdı. Təəssüf ki, o lentlər qalmayıb. İlk müşayiət etdiyim böyük xanəndə Əbülfət Əliyev oldu. Sonra məni yavaş-yavaş tanıdılar. Hacıbaba Hüseynovu, İldırım Həsənovu, Yaqub Məmmədovu, Canəli Əkbərovu, Arif Babayevi, Şövkət xanımı, Sara xanımı, Tükəzban xanımı müşayiət elədim. Səxavət Məmmədovla 15 yaşımızdan bir yerdə oxumuşuq. Onda biz heç kim idik, sonra o Səxavət oldu, mən də Möhlət. Əsas bizi xalq sevirdi, el şənliklərinə gedirdik. Televiziya da bir dənə idi, bütün xalq bizi tanıdı. O insanları ki, görmüşəm, onlarla efirə çıxmışam, indiki efirlərə getməyə ayağım gəlmir. Qoy tənqid edim: televiziyalarda musiqini bilən redaktor yoxdur. Ona görə efirlərdən qaçmağa çalışıram. Heç olmasa, azca da olsa xəbərdar olsunlar bu dəryadan. İdman şərhçisini və ya bir başqa sahənin adamını musiqi redaksiyasına rəhbər təyin edirlər. Çox istərdim o yerlərdə musiqi təhsilli insanlar olsun ki, bu kontingenti tanısınlar! Bu sənət dəryadır. Deyə bilmərəm ki, mən bu dəryanın gözəl üzgüçüsüyəm, bu sözü deməyə qorxuram. Bu gün öyrənib ifa etdiyimi beş ildən sonra bəyənmirəm. Bir insan ömrü bunu öyrənməyə çatmır.

**● Müşayiət niyə çətindir?**

● Müşayiət edən tarzənin o qədər ehtiyatı olmalıdır ki, xanəndə bədahətən oxuyanda ona cavab versin. Tarzən həm özünə, həm xanəndəyə, həm də kamança ifaçısına cavabdehdir. Mən heç vaxt aylarla məşq edib səhnəyə çıxmağı xoşlamamışam. Muğamı məşq edəndə elə bilirəm ki, əzbərçilik olur. Ansamblla məşqlər etməyə məcbursan. Amma “üçlük”də muğam yerlərini məşq etdmirdim, beynimə nə gəlirdisə, onu da edirdim. O da effekt verirdi. Bədahətən ifa edəndə lap barmağın ilişsə, çaşsan belə, yenə də şirindir...

## “HABİL ƏLİYEVLƏ ƏLİBABA MÜƏLLİM MƏNİ ÇAĞIRDI...”

**● Hərdən yaşlı sənətkarlar deyirlər ki, sağımız, solumuz boşdur, dostlarımız, həmkarlarımız, sənət yoldaşlarımız gedib. Siz ətrafa baxanda nə düşünürsünüz, hansı fərqi hiss edirsiniz? Artıq ətrafınızda o nəsil yoxdur...**

● Mən bunu bu yaxınlarda hiss etdim. Görün, kimləri itirdik... Bu yaxınlarda haqqımda bir videoçarx çəkdilər. Mən istərdim ki, haqqımda Habil Əliyev, Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Yaqub Məmmədov, Məmmədbağır Bağırzadə, Vahid Abdullayev danışsın. Düzdür, indi də qiymət verənlər, bilənlər var, amma o deyil. Bir dəfə tələbələrlə görüşdə Habil Əliyevdən soruşdular ki, birdən tar çalsaydınız, kimin tərzində ifa edərdiniz? Zaldakılar yəqin gözləyirdi ki, o, Qurban Pirimovun, Hacı Məmmədovun adını çəkəcək. Amma Habil müəllim ”mən tar çalsaydım, çalışardım Möhlət Müslümov kimi ifa edim...” dedi. Mən utandım, qoymadım o fikirlər efirə getsin. Sonra o fikirlər necəsə “youtube”də yayılmışdı. Hətta Cənubi Azərbaycandan mənə göndərirdilər. İndi deyirəm ki, daha 70-dir də, qoy bu fikirlər getsin. Bəlkə heç 75-i, 80-i qeyd etməyəcəm... Düzdür, o kişilər məndən yaşca böyük idilər. Mənim 24-25 yaşım vardı. Yaşlı sənətkarlar məni çağırıb tənqid edirdilər. 22 yaşım olanda Asəf Zeynallı adına Musiqi Məktəbində müəllim olmuşam. Milli Musiqi Konservatoriyası açılanda ilk muğam müəllimi kimi məni dəvət etdilər. Klassikanı da bilirəm, öz dəst-xəttim də var. Məni nə qədər tənqid edirdilərsə, həvəsdən düşmürdüm, öz dəst-xəttimi ifa etməyə məcbur idim. Çünki gitaranın tüğyan etdiyi bir vaxtda tarı sevdirmək lazım idi. Mən öz tərzimdə bədahətən yeniliklər tapırdım, amma tənqidlərlə qarşılaşırdım. Bir gün Habil Əliyevlə Əlibaba müəllim məni çağırıb “heç kimə qulaq asma, bu yolu davam elə, vaxt olar, bunun xeyrini görərsən, biz sənə xeyir-dua veririk” dedilər. Doğrudan da, üstündən 5 il keçdi, gördüm mənim onda elədiklərimi indi edirlər...

## 7 GÜN 7 MUĞAM

**● “Ən böyük arzum idi ki, Qarabağ azad olunsun, gedim orada 7 gün 7 müqəddəs muğamımızı ifa edim...”**

● Hə, bunu çoxdan demişəm... Bilirsiniz, hər sənətkarın bir püxtələşmə dövrü var. Biz rəhmətlik Səxavətlə tələbə, sonra sənət yoldaşı, daha sonra ailəvi dost olduq. Səxavətlə Qarabağın elə bir yeri yox idi ki, orada olmayım. Məni oralarda o qədər sevirdilər ki, bir dəfə getməyəndə Səxavətdən “niyə gəlməyib?” deyə soruşurdular. Sonra torpaqlar işğal oldu. O insanlar ki, orada onların çörəyini yedim, suyunu içdim, özümün də, tarımın da onlara borcu vardı. Arzu edirdim ki, Qarabağ alınaydı, gedib yeddi gün muğam axşamı təşkil edə, yeddi əsas muğamımızı hər gün ifa edəydim. Torpaqlar azad olunandan sonra Qarabağda çox olmuşam. Şuşada, Laçında olmuşam. Laçında “Ata-oğulların çıxışı” layihəsində oğlum Rüstəmlə çıxış elədim. Konsert arzumu da yəqin ki, həyata keçirəcəyəm.

**● Milli Konservatoriyanın professoru kimi tələbələr haqqında fikirləriniz maraqlıdır. Özünüzün oxuduğunuz illərdəki kimi onlarda da entuziazm varmı?**

● Təəssüf ki, yoxdur... İndiki tələbələr dərsə güclə gəlirlər. 10 nəfərdən birində bizdə olan həvəsin 30 faizi olsa, sevinərəm. Mən dərsdən gəlirdim, yeməyimi yeyib tar çalırdım. İstədiyimi ala bilmirdim, yatırdım, yuxuda görüb gecə saat 3-4-də durub yenə ifa edirdim. Anam atama deyirdi ki, bu uşaq xəstələnib, onu bir həkimə göstər. İndi bu həvəsi tələbələrdə görmürəm. Bu yaxınlarda “Ustad dərsi” elədim. Efirdə yayımlandı. Efirə çıxarmağa 10 il əvvəlki tələbələrdən tapa bilmədim. Tələbəyə görə hərəkət elədim, özümə görə yox...

## “O TAR TAPILMADI Kİ...”

Fotolar: Rüfət Mikayılov - Global Photostock



**● İllər öncə 100 yaşlı tarınızın itməsi xəbəri yayıldı. O tarın taleyi necə oldu?**

● O tar tapılmadı ki... Onu alanda 90 yaşı vardı. Qəmərlinski adlı tar ifaçısı vardı. Onun oğlu bir gün dedi ki, atamızın tarını satırıq, 90 yaşı var. O tarı aldım, öz əlimə uyğunlaşdırdım, sökdürüb-yığdırdım. Oğlum Asəf Zeynallıda oxuyanda tarı mühafizəçinin yanında qoyub. Tarın futlyarı qalıb, özünü götürmüşdülər. O vaxt kamera da yox idi. Çox səsə salmağa da utandım. Polad Bülbüloğlu haradansa eşitmişdi. Zəng vurdu ki, niyə deməmisən, axtarışa verərdik. DİN-dən də zəng elədilər. Dedim, lazım deyil, kimsə tanımadığım adam gəlib götürüb. Şikayət eləmək istəmədim, ortada mühafizəçi vardı. Amma o tarı görsəm tanıyaram. Tarın sədəfləri məndə qalıb.



## “ALLAH MƏNƏ GÜC VERSƏ...”

**● 70 yaşınıza arzunuz...**

● İfa eləmədiyim musiqi qalmayıb, hamısını ifa eləmişəm. Amma Allah mənə güc versə və mənə vəhy gəlsə, bir neçə ifa olunmayan bəstəkar və xalq mahnıları var, onları ifa edib lentə yazdırmaq istəyərəm. Arzu edirəm, bir daha müharibə olmasın! Xalqımızın ehtiyacı ancaq musiqiyə olsun. Bir də xalqımız keçmiş adət-ənənəmizə qayıtsın. Toylarımıza fikir versinlər. Bəy-gəlinlər “Vağzalı” ilə məclisə daxil olsunlar. Özümə arzum budur ki, 90 yaşımda olsam da, tar əlimdə olsun. Tar elə alətdir ki, uşağa da yaraşır, yaşlıya da. Tara “ulu alət” ona görə deyirlər...



# Sosialyönümlü xərclər dinamik olaraq artır

Vüqar Bayramov: "2025-ci ildə Azərbaycanın 10 milyard dollarlıq sosial ayırmaları Cənubi Qafqazın digər iki ölkəsinin birgə sosial xərclərindən 2.2 dəfə çox olacaq. Azərbaycanın yalnız sosial büdcəsi Ermənistanın ümumi büdcəsindən 67 faiz çoxdur".



Milli Məclisdə gələn ilin büdcə zərfinin müzakirəsi zamanı ən çox toxunulan mövzulardan biri də sosial sahədə həyata keçirilən islahatlar və xərclərlə bağlı oldu. Bu məsələ parlamentin noyabrın 29-da keçirilən iclasında da qaldırılıb.

Millət vəkili Vüqar Bayramov plenar iclasda çıxışı zamanı bildirib ki, sosial təminatın daha da gücləndirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir.

**2025-Cİ İL ÜÇÜN 16 MİLYARD 909 MİLYON MANAT**

Millət vəkilinin sözlərinə görə, bu, özünü dövlət büdcəsinin sosialyönümlü xərclərinin dinamik olaraq artmasında da göstərir: "Belə ki, Vətən müharibəsindən sonra, 2021-ci ilin dövlət büdcəsində sosialyönümlü xərclərin məbləği 12 milyard 202 milyon manat idisə, bu göstərici 2022-ci ildə 13.7 milyard manat, 2023-cü ildə 15.2 milyard manat, 2024-cü ildə 15 milyard 539 milyon manat və nəhayət, 2025-ci il üçün 16 milyard 909 milyon manat nəzərdə tutulub. Göründüyü kimi, sosialyönümlü xərclər hər il əvvəlki ilə nisbətən artımla icra edilib. Bu, eyni zamanda, 2021-c illə müqayisədə illik sosial ayırmaların gələn il 4 milyard 707 milyon artırılacağı deməkdir. Digər tərəfdən, son 5 ildəki sosial paketlərin maliyyələşdirilməsinə əlavə olaraq 7 milyard manat vəsait ayrılıb. Bu müddətdə, həmçinin Qarabağ və Şərqi Zəngəzurun bərpasına 18 milyard manata yaxın vəsait yönəldilib və 2025-ci ilin proqnoz göstəricisini nəzərə aldıqda bu rəqəm 22 milyard manatadək yüksələcək".

**Ermənistanın ümumi büdcəsindən 67 faiz çox**

V.Bayramovun sözlərinə görə, 2025-ci ildə Azərbaycanın dollar ifadəsində 10 milyard dollarlıq sosial ayırmaları Cənubi Qafqazın digər iki ölkəsinin birgə sosial xərclərindən 2.2 dəfə çox olacaq. Eyni zamanda, Azərbaycanın yalnız sosial büdcəsi Ermənistanın xarici borclar və qrantlarla formalaşan ümumi büdcəsindən 67 faiz çoxdur.


Vüqar Bayramov

Foto: Firudin Səlimov - Global Photostock




# "Trendyol"dan "Əfsanə günlər" kampaniyası

Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması "Trendyol" Azərbaycandakı müştəriləri üçün "Əfsanə günlər" kampaniyasına başlayır. İlin əfsanə endirimlərinin yer aldığı kampaniya 27 noyabr - 2 dekabr tarixlərini əhatə edir.

"Əfsanə günlər"də "Trendyol" istifadəçiləri elektronikadan mətbəx avadanlıqlarına, dəbli geyimlərdən şəxsi baxım məhsullarına qədər bütün kateqoriyalarda "Noyabr 25" kodu ilə 25 faizlik endirim fürsəti qazanacaqlar. Əlavə olaraq, alış-veriş həvəskarları seçilmiş məhsullarda 60 faizədək endirim əldə etməklə daha çox fürsətlərdən yararlana biləcəklər.

Həmçinin, "Trendyol"un sevilən "Qazandıran çarx" və "Paylaş-Qazan" kampaniyaları da əlavə şanslar verməyə davam edəcək. Kampaniya müddətində şirkət Bakı bulvarında, Azərbaycan Dövlət Kukla Teatrının yaxınlığında - piyada keçidinin önündəki stendində müştərilərini qarşılayacaq və onlara əlavə endirim fürsəti qazandırmağa davam edəcək. Belə ki, "Trendyol" stendinin ziyarətçiləri təşkil olunmuş yarışlarda iştirak edərək 5 000, 2 000, 750, 500, 200 və 100 TL məbləğində endirim kuponları əldə edə biləcəklər.

# "TIME"DA "AZERCONNECT GROUP"UN FƏALİYYƏTİNDƏN YAZILIB

Dünyanın ən nüfuzlu nəşrlərindən biri olan "TIME" jurnalı Azərbaycan haqqında hazırladığı məqalədə "Azerconnect Group"un fəaliyyətindən bəhs edib. "Azerconnect Group - Azərbaycanı dünyaya bağlayır" adlı məqalədə "Azerconnect Group"un ölkənin aparıcı İKT şirkəti olması, həmçinin bu il dünyanın telekommunikasiya nəhəngi "Vodafone"la strateji tərəfdaşlığa başlaması qeyd olunub. Bildirilib ki, bu tərəfdaşlıq şirkətə rəqəmsallaşma, təhlükəsizlik əməliyyatları mərkəzləri, şəbəkə texnologiyaları və kommersiya xidmətləri kimi mühüm sahələrdə inkişafı daha da sürətləndirməyə imkan verəcək.




"Azerconnect Group"un baş direktoru Emil Məsimov nəşrə müsahibəsində şirkətin ölkədə qabaqcıl texnologiyaların tətbiqi üçün kifayət qədər resursu və güclü infrastrukturu olduğunu qeyd edib: "Telekommunikasiya və İKT sahəsində sürətlə baş verən yeniliklər uzunmüddətli planlama baxımından əsl çağırışdır. Bu çağırışların öhdəsindən gəlmək üçün bazardakı dəyişikliklərə çevik reaksiya olduqca önəmlidir".

Məqalədə, həmçinin bildirilib ki, "Azerconnect Group" "Deloitte" şirkəti tərəfindən təsis olunmuş "Best Managed Companies Azerbaijan 2024" müsabiqəsinin qalibi seçilib, həyata keçirilən innovativ təşəbbüslərə görə "Top Employers Institute" (Ən Yaxşı İşəgötürənlər İnstitutu) və digər beynəlxalq təşkilatların mükafatlarına layiq görülüb.

Eyni zamanda, materialda şirkətin dayanıqlılıq sahəsində icra etdiyi layihələr barədə məlumat da yer alıb. Vurğulanıb ki, qabaqcıl biznes modellərinin tətbiqi nəticəsində şirkət enerji səmərəliliyini əhəmiyyətli dərəcədə artıraraq, enerji istehlakını 60%-ə qədər azaldıb.

"Azerconnect Group" haqqında
Ölkəmizdə dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən "Azerconnect Group" mobil, internet, beynəlxalq kanalların təşkili və FinTech, AdTech, Media/TV kimi rəqəmsal xidmətlər təqdim edir. "Azerconnect Group" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2784
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# MƏNƏVİ DÜNYAMIZA İŞIQ SAÇAN MÜTƏFƏKKİR

**Həsən bəy Zərdabinin vəfatından 117 il ötür. Onun Azərbaycan xalqının işıqlı gələcəyi naminə göstərmiş olduğu tarixi xidmətlər, qoymuş olduğu dəyərli irs tarixin yaddaşında əbədi qalacaq.**

ELDƏNİZ HƏSƏNOV

Milli mətbuatımızın, teatrımızın banisi, Azərbaycanın ilk ali təhsilli müəllimi, müsəlman Şərqində xeyriyyəçilik hərəkatının yaradıcısı, müsəlman dünyasının ilk təbiətşünas alimi, ictimai-siyasi xadim Həsən bəy Zərdabinin vəfatından 117 il ötür.

1907-ci ilin noyabrında sonuncu dəfə yatağa düşən Həsən bəy övladlarını oxudub arzusuna çatmışdı. Onlardan razı idi. Böyük oğlu Midhəd bəy Almaniyada ali təhsil alıb qayıtmışdı, Səffət Realni gimnaziyada oxuyurdu. Qızı Qəribsoltan təhsilini davam etdirirdi, ərə getmiş Pəri xanım atasının yanında idi. Lakin Həsən bəyin bir dərdi vardı. O, bu dünyadan xalqının savadlanmasını görmədən köç edirdi. Həyatının son anında da xalqa sonsuz məhəbbətini ifadə edərək belə demişdi: “Sizdən xahiş edirəm ki, təntənəli dəfn mərasimi düzəltməyin, məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olar”.

### HƏMİN GÜN BAKIDA HƏYAT DAYANIR

1907-ci ilin noyabrın 28-də səhər saat 11-də millət fədaisi Həsən bəy Məlikov Zərdabi Bakıda əbədiyyətə qovuşur. Noyabrın 30-u - onun dəfn günü millətin birləşdiyi gün olur. Həmin gün Bakıda bütün zavod, fabriklər işi dayandırır, məktəblər bağlanır. Hamı birlikdə dahi şəxsiyyəti son mənzilə yola salır. Dahi mütəfəkkirin dəfn mərasiminə Əlimərdan bəyin ən yaxın dostu olan Əhməd bəy Ağayev rəhbərlik edir. Mərasimdə Azərbaycanın bir çox görkəmli ziyalıları - Məhəmməd Əmin Rəsulzadə, Qara bəy Qarabəyov, Nazim bəy Vəzirov və başqaları geniş nitq söyləyirlər. Bakının keçmiş başçısı Rayevski də dahi mütəfəkkirin millətinin işıqlı gələcəyi yolunda misilsiz xidmətlərini diqqətə çatdırıb: “Dumanın iclaslarında Həsən bəyin nitqləri və qeydləri olmasaydı, mən Bakının özünüidarəsi işlərini yoluna qoya bilməzdim”.

Həsən bəy xalq arasında böyük nüfuz sahibi idi. Vəfatından sonra - 1907-ci ilin dekabrında şəhər Duması Bakı şəhər 2 nömrəli Rus-Azərbaycan məktəbinə onun adının verilməsi və Moskva Universitetində onun adına təqaüdün təsis olunması barədə qərar qəbul etmişdi.

Azərbaycan ziyalılarının mənəvi ata saydıqları Həsən bəyin vəfatı xalqı həddsiz dərəcədə kədərləndirir.

O dövrdə Bakıda çıxan qəzetlər onun haqqında nekroloqlar dərc edir. Dəfn mərasimində iştirak edən “Kaspi” qəzeti əməkdaşlarının göndərdikləri əkliлə bağlanmış lentin üzərində bu sözlər həkk olunur: “Mütəfəkkir işçiyə” “Kaspi” mətbəəsinin fəhlələri tərəfindən. Cismən öldünsə, fikrən yaşayırsan”.

### QƏBRİNİN YERİ ÜÇ DƏFƏ DƏYİŞDİRİLİR

Bütün bunlara baxmayaraq, vətəninə, xalqına misilsiz tarixi xidmətləri olan Zərdabi şəxsiyyəti layiqli qiymətini almayıb. Onun qəbrinin yeri 3 dəfə dəyişdirilib və nəhayət, naşi layiq olduğu yerdə - Fəxri Xiyabanda torpağa tapşırılıb.

1937-ci ildə xəbər yayılır ki, yeni çəkilən Bakı-Salyan yolu Şıx kəndindəki Bibiheybət məscidinin ətrafında yerləşən qəbiristanlıqdan keçəcək. Kim istəyir doğmalarının, yaxınlarının məzarını köçürə bilər. O zaman Həsən bəyin ailəsindən yalnız evin sonbeşiyi Qəribsoltan xanım qalmışdı. O, bu xəbəri eşidəndə təlaş içində nə edəcəyini bilmir. Ən əlverişli yol kimi fəhlə tapıb naşi tez bir zamanda qəbirdən çıxarmaqda görür. Mərhumun cəsədinin qalıqları bir yeşiyə yığılır və iki fəhlə tərəfindən Bayıla gətirilir və Qəribsoltan xanıma təhvil verilir.

### HARADA OLDUĞU BİLİNMƏYƏN MƏZAR

Həsən bəyin vəfatının 50 ili tamam olanda dahi mütəfəkkirin xatirə gününün qeyd olunması məsələsi gündəmə gəlir. Tanınmış ədəbiyyatçı alim Abbas Zamanov Mərkəzi Komitə qarşısında bununla bağlı məsələ qaldırır. Mərkəzi Komitənin şöbə müdiri Şıxəli Qurbanov məsələyə qarışır və yubiley komissiyası təşkil olunur. Tədbirlər çərçivəsində qəbrin abadlaşdırılması məsələsinə baxılan zaman məzarın harada olması sualı ortaya çıxır və onun yerini heç kəs bilmir. Bu zaman Həsən bəyin Bakıda yaşayan yeganə varisi Qəribsoltan xanım yada düşür və ona müraciət edilir. Abbas Zamanov, tanınmış bioloq alim Mirəli Axundov və bir neçə filosof alimlə birlikdə Qəribsoltan xanımın yaşadığı mənzilə gəlir. Qəribsoltan xanım əvvəlcə gələnləri əsəbi qarşılasa da, sonradan atasının 1937-ci ildə anası Hənifə xanımın yanında basdırıldığını bildirir. A.Zamanov tələbələri ilə birlikdə şəhər qəbiristanlığına üz tutur, Hənifə xanımın məzarı açılır, Həsən bəyin qutuya yığılan, xanımının ayaqları altında basdırılan sümükləri qəbirdən çıxarılır. Beləliklə, Həsən bəy 1957-ci ildə üçüncü dəfə - bu dəfə Fəxri Xiyabanda dəfn olunur.




### İNDİ ADINA PARKLAR, KÜÇƏLƏR SALINIB

Bu gün Zərdabinin arxivi AMEA-nın Əlyazmalar Fondunda, Dövlət Tarix Arxivində və Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılır. AMEA-nın Təbiət-Tarix muzeyi onun adını daşıyır.

Quba rayonundakı Zərdabi qəsəbəsi Həsən bəyin şərəfinə adlandırılıb, 2022-ci ildə orada onun büstü qoyulub. Bakıda dahi mütəfəkkirin adına prospekt var.

Doğma yurdu Zərdabda Həsən bəyin yaratmış olduğu “Əkinçi” qəzeti və onun adına muzey, park, orta məktəb fəaliyyət göstərir. Həsən bəyin arzu etdiyi yerdə - ona məxsus bağ sahəsində daş qranit abidəsi qoyulub.

Azərbaycan müstəqillik qazanandan sonra xalq Həsən bəy Zərdabinin dahiliyini, böyüklüyünü və xidmətlərini daha dərindən anladı.

Ümummilli Lider Heydər Əliyevin 27 mart 2000-ci il tarixli fərmanı ilə “Əkinçi”nin 125 illiyi və eyni zamanda Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Azərbaycan Milli Mətbuatının 130, 135, 140 və 145 illiyi dövlət səviyyəsində qeyd edilib. Prezidentin 4 iyun 2012-ci il tarixli sərəncamına əsasən, Həsən bəy Zərdabinin anadan olmasının 170 illik yubileyinin təntənəli surətdə qeyd edilməsi də tarixi əhəmiyyət kəsb edir.

Mənəvi dünyamıza işıq saçan ömrün - həyatını millət yolunda fəda etmiş Həsən bəy Məlikov Zərdabinin Azərbaycan xalqının işıqlı gələcəyi naminə göstərmiş olduğu tarixi xidmətləri, onun qoymuş olduğu maraqlı və dəyərli iz-irs tarixin yaddaşında əbədi qalacaq.

Ruhun şad olsun, ey millətinin fədaisi, mənəvi atası dahi Həsən bəy!





PROBLEMİN HƏLLİ ÜÇÜN BU SAHƏYƏ ÖZƏL SEKTORUN CƏLB EDİLMƏSİ DÜŞÜNÜLÜR

# YATAQXANA PROBLEMİ İLƏ BAĞLI YENİ LAYİHƏ

Ali məktəblərin yataqxanalarının təmirinə özəl sektorun cəlbi planlaşdırılır. Bununla bağlı xüsusi layihə hazırlanıb. Layihənin icrası tələbələrin əsas problemlərindən birinin həllinə kömək edə bilər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Tələbələri hər zaman düşündürən məqamlardan biri də yataqxana məsələsidir. Bu problem tələbələrin həyatındakı çətinliklərlə yanaşı, kirayə mənzil bazarına da təsir göstərir. Yataqxanasızlıq şəraitində mənzillərə tələbat çox olduğu üçün qiymətlər də cib yandırır. Tələbələr hər il yay aylarından ev axtarışına çıxır, uyğun mənzil tapmaq isə şans məsələsidir.

Bu günlərdə Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov yataqxana problemi ilə bağlı ümidverici açıqlama verib. O bildirib ki, ali məktəblərin yataqxanalarının təmirinə özəl sektorun cəlbi üçün "Tələbə yataqxanalarının texniki maliyyə əsaslandırılması" sənədinin hazırlanmasına başlanılıb. Fond rəhbəri düşünür ki, işin həcmi çox böyükdür və dövlət bunun öhdəsindən tək gələ bilməz. Ona görə də, bu sahəyə özəl sərmayə cəlb edilməlidir. Ümumi bir sənəd hazırlanacaq, investorlar istəklərinə uyğun olaraq, seçdikləri universitetlərə bu sahə üzrə investisiya yatıra biləcəklər.

Bəs bu layihə yataqxana problemini həll edəcəkmi?

### KONTİNGENTİN MAKSİMUM ÜÇ FAİZİNİ ÖDƏYİR

Təhsil eksperti Elmin Nuri deyir ki, hazırda universitet yataqxanaları yataqxanaya ehtiyacı olan tələbələrin yalnız üç faizinin tələbatını ödəyə bilir: "Bu layihəyə çoxdan başlanılmalı idi. Çünki ali təhsil seqmenti ilə bağlı ən ciddi problemlərdən biri yataqxanalardır. Bu gün ölkədə yataqxana imkanları olan çox az universitet var. Onlar arasında da sorğu keçirərkən məlum olmuşdu ki, bu yataqxanalar tələbə kontingentinin maksimum üç faizinin ehtiyacını ödəyə bilir. Bu, dəhşətli rəqəmdir. Bir yataqxanada nə qədər tələbə yerləşə bilər? Maksimum 1000, bəs bundan sonra? Bu gün hansı universitetimizdə yalnız 1000 tələbənin yataqxanaya ehtiyacı var? İkinci məsələyə gəldikdə, Azərbaycana gələn əcnəbi tələbələrin qarşısını alan əsas faktorlardan biri də yataqxana, kampus şəraitidir. Əcnəbi araşdırır, universitetlərdən birini seçərək baxır ki, tarixi, reytinq cədvəli yaxşıdır, amma yataqxana imkanları yoxdur. Kəmiyyətə görə bölgədəki yataqxanalar paytaxtdakı universitet yataqxanalarından daha yaxşıdır. Onlar müəyyən qədər bunun öhdəsindən gəlməyə çalışır. Çünki bölgə universitetləri yataqxanaya məcburiyyət kimi baxır, paytaxtda da yanaşma belə olmalıdır".

### LAYİHƏ İNTENSİV ŞƏKİLDƏ HƏYATA KEÇİRİLMƏLDİR

Həmsöhbətimiz vurğulayır ki, bu problemin həllində özəl sektorun dəstəyi çox vacibdir: "Amma bu, intensiv şəkildə həyata keçirilməlidir. Məsələn, bir yataqxana tikildi, onun təbliğatı aparıldıqdan sonra layihə passiv duruma keçməməlidir. Bizim kiçik tələbə tutumu olan özəl universitetlərimiz də daxil olmaqla, bütün universitetlərin yataqxanalara ehtiyacı var. Yataqxana əsl tələbə mühitini formalaşdıran, ona başqa bir ovqat qatan məkandır. Xaricdə evində qalmaq imkanı olan tələbələr belə, yataqxanaları seçirlər. Çünki yataqxana dediyimiz hər hansı mehmanxana deyil. Universitetin tələblərinə cavab verən əlavə şəraiti olur. Ona görə də bu layihə olduqca vacibdir".







## GÜZƏŞTLƏR OLMALIDIR

Ödəniş məsələsinə gəldikdə isə, E.Nuri deyir ki, əksər ölkələrdə yataqxanalarla bağlı ödənişlər tələbələrin göstərdiyi nəticələrə əsasən hesablanır: "Ödənişlə bağlı birmənalı fikir mümkün deyil. Xaricdə belə bir təcrübə var ki, əgər tələbə yüksək təqaüd alırsa, o, yataqxana daxil, müxtəlif xərclərdən azad olunur. Bizdə də bu üsuldan istifadə oluna bilər. Özəl sektor bahalı yataqxana tikib baha qiymətə versə, təbii ki, bunun tələbəyə yararı olmayacaq. Çünki imkanı olan tələbə kirayə ev tutub qalır. Burada güzəştlər olmalıdır".

### ÇOXMƏRTƏBƏLİ YATAQXANALAR İNŞA EDİLMƏLİDİR

Yataqxana çatışmazlığının yaratdığı əsas problemlərdən biri də kirayə mənzillərdir. Mənzillərə tələbat çox olduğu üçün qiymətlər bahadır. Bəs bu sənədin qəbulu kirayə mənzil bazarında qiymətlərə təsir edə bilərmi?

Əmlak eksperti Elnur Azadov deyir ki, ölkədə olan yataqxanaların əksəriyyəti 1970-ci ilə qədər inşa olunanlardır və istismar müddəti bitib. Onların bərpa edilməsi, yoxsa sökülüb yenidən tikilməsi ideyasını ciddi şəkildə dəyərləndirmək lazımdır: "Azmərtəbəli yataqxanaları tamamilə söküb, yerində çoxmərtəbəli yataqxanalar inşa etmək lazımdır. Ona görə ki, bu yataqxanalar hamısı sovet dövründə inşa olunub. O vaxt universitetlərdə yaxud təhsil ocaqlarında olan tələblərin sayı indiki qədər deyildi. Buna görə də yataqxanaların sayı əvvəlki illərlə müqayisədə dəfələrlə artırılmalıdır".

## QİYMƏTLƏR DAHA DA ARTACAQ?

Əmlak eksperti vurğulayır ki, xarici investorların, özəl şirkətlərin cəlb olunması yataqxanada qiymətlərin artması ilə nəticələnə bilər: "Xarici təcrübədə belə bir forma var: investisiya şirkətləri yataqxanalar tikir və onları kirayə verərək qoyduqları sərmayəni çıxarırlar. Bizim ölkədə yataqxanalara kiçik xidməthaqqı ödənilir. Bərpa olunandan sonra isə daha artıq ödəniş etmək məcburiyyətində qalacaqlar. Hazırda yataqxanalardan istifadə edən aztəminatlı ailələrin uşaqlarıdır. Qiymətlər artsa, bu, yataqxanalardan hazırda istifadə edən kateqoriyaya mənfi təsir edəcək. Ona görə də, bərpa olunub, yaxud yenidən tikiləndən sonra qiymət məsələsi nəzərə alınmalıdır".

Yataqxanaların yenidən bərpasının kirayə mənzil bazarına təsirinə gəldikdə isə, həmsöhbətimiz deyir ki, mövcud yataqxanalara investisiya yatırılıb bərpa olunsa, daşınmaz əmlak bazarına heç bir təsiri olmayacaq: "Bu, kirayə mənzil bazarına 5-10 faiz təsir edə bilər".

Qeyd edək ki, "bp" şirkəti ilə Təhsilin İnkişafı Fondu arasında "Tələbə yataqxanalarının texniki maliyyə əsaslandırılması" sənədinin hazırlanmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb.



Elmin Nuri



Elnur Azadov

Yanğınların əksəriyyəti elektrik təsərrüfatındakı nasazlıqlar səbəbindən baş verir

# ÇOXMƏRTƏBƏLİ BİNALARDA YANĞIN RİSKİ

Son vaxtlar Bakıda yenitikili binalarda ard-arda yanğınlar baş verir. Səbəb bəzi vətəndaşların səhlənkarlığı, habelə məişətdə standartlara uyğun olmayan elektrik və qaz cihazlarından istifadə, mənzildaxili elektrik avadanlığı sistemlərinin işinin pozulmasıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bakıda yeni yaşayış binalarının sayı artmaqdadır. Binaların sayının artması ilə onların təhlükəsizliyi məsələsi də gündəmə gəlir. Son günlərdə tez-tez yenitikili binalarda yanğınların baş verməsi xəbərlərini oxuyuruq. Həmin binalarda xeyli sayda insanın yaşadığını nəzərə alsaq, bir evdə yanğın baş verməsi onlarla insanın həyatının və əmlakının təhlükədə olması deməkdir. Bəs bu yanğınlara səbəb nədir?

### "YAŞAYIŞ BİNALARINDA 807 YANĞIN BAŞ VERİB"

Fövqəladə Hallar Nazirliyindən bildirildi ki, əslində yanğınların sayında əvvəlki dövrlərə nisbətən azalma mövcuddur: "2024-cü ilin doqquz ayı ərzində respublika ərazisində 1216 təhqiqatı aparılmış yanğın hadisəsi baş verib. Bu da 2023-cü ilin müvafiq dövrü ilə 135 ədəd və ya 10 faiz azalma deməkdir. O cümlədən 2024-cü ilin doqquz ayı ərzində yaşayış binalarında 807, açıq sahələrdə 32, nəqliyyat vasitələrində 256 və digər yanğınlarda isə 121 hadisə qeydə alınıb. Aparılan maarifləndirmə tədbirlərinin nəticəsidir ki, yanğınların sayının ötən illə müqayisədə azalmasına nail olunub".

### "ƏSAS SƏBƏB VƏTƏNDAŞ SƏHLƏNKARLIĞIDIR"

Yaşayış binalarında yanğınların başvermə səbəblərinə gəldikdə isə qeyd edildi ki, həmin hadisələr bir qayda olaraq, bəzi vətəndaşların səhlənkarlığı, habelə məişətdə standartlara uyğun olmayan elektrik və qaz cihazlarından istifadə, mənzildaxili elektrik avadanlığı sistemlərinin işinin pozulması və digər səbəblərdən baş verir: "Odur ki, yanğın təhlükəsizliyi qaydalarına əməl etmək, azyaşlı uşaqları evdə nəzarətsiz qoymamaq, elektrik cihazlarını uşaqlara həvalə etməmək, elektrik xətləri və uzadıcıları həddindən artıq yükləməmək, mənzildən çıxarkən elektrik avadanlığı və qaz cihazlarını şəbəkədən ayırmaq və söndürməyi unutmamaq, standartlara uyğun olmayan qaz cihazlarından istifadə etməmək, söndürülməmiş kibrit və siqaret kötüyünü eyvandan yerə atmamaq, mətbəx, eyvan və pilləkən qəfəslərində tezalışan yanar maddə saxlamamaq vətəndaşlara tövsiyə olunur".



Elmar Nurəliyev

### "Yanğınların çoxu elektrik şəbəkəsindən qaynaqlanır"

Təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyevin sözlərinə görə, yanğının baş verməsi üçün üç element şərtdir: "İstilik, yanan material və oksigen. Evdə olan hər bir şeyin yanma riski var. İstilik də olduqda mütləq ki, yanğın təhlükəsi meydana çıxır". Ekspertin fikrincə, istər fərdi evlər, istərsə də çoxmənzilli yaşayış binalarında yanğınların böyük əksəriyyəti elektrik təsərrüfatında baş verən qızma, qısaqapanma, alışma səbəbindən meydana gəlir: "O səbəbdən, evlərdə elektrik təsərrüfatının daim saz vəziyyətdə olmasına diqqət etmək lazımdır. Evdə istifadə olunan elektrik cihazları, avadanlıqlar hər biri sertifikatı olan, keyfiyyətli məhsullar olmalıdır. Həmçinin istifadəsi zamanı yanğın təhlükəsizliyi qaydalarına uyğun olaraq nəzarət etmək lazımdır. Evi tərk etdikdə elektrik cihazlarını xətdən ayırmaq vacibdir. Elektrik şəbəkəsi tam normativ standartlara uyğun olaraq istismar edilməlidir".

E.Nurəliyev bildirdi ki, elektrik şəbəkəsində baş verə biləcək yanğınların qarşısını almaq üçün keyfiyyətli məhsuldan istifadə etməliyik: "Yanğınların statistikasında ən böyük pay elektrik təsərrüfatında baş verən yanğınlara aiddir. Elektrik təsərrüfatı saz vəziyyətdə olmazsa, normadan artıq yüklənmə baş verərsə, eyni anda bir neçə elektrik cihazı fəaliyyət göstərdikdə evin elektrik tutumu da buna uyğun olmadıqda, yaxud hər hansı bir izolyasiya pozulması olarsa, bu, qızma, qısaqapanma, alışma və yanğına gətirib çıxara bilər".

## Binalardakı mövcud problemlər

E.Nurəliyevin sözlərinə görə, binalarda yanğın təhlükəsizliyi sistemi qurulmalı və qaydalara əməl olunmalıdır: "Yaranan təhlükənin qarşısının vaxtında alınması və insanların oradan təhlükəsiz təxliyə olunması, təhlükəsiz toplanış yerinin, ehtiyat su çəninin, yanğın xəbərdaredici siqnalizasiya vasitələrinin olması, yanğın dolablarının, hidrantların mövcudluğu vacibdir. Bunlara əməl olunduqda, insanların təhlükəsiz çıxarılması da mümkün olur. Ancaq təxliyə yolları, toplanış yerləri olmasa, ehtiyat su çəni təyinatı üzrə istifadə olunmursa, yaxud nasaz vəziyyətdədirsə, bu da yanğının qısa zamanda genişlənməsinə gətirib çıxarır. Bu sistemlər hadisə baş verdikdə daha tez qarşısının alınması və yayılmaması üçündür".

Ekspertin fikrincə, bir çox hallarda binalarda yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilmir: "Binaların həyətində təhlükəsiz toplanış yerləri və ehtiyat su çəninin ətrafında yanğınsöndürmə maşınlarının oraya yan ala bilməsi üçün yer olmalıdır. Lakin əksər hallarda bu yerlərdə digər maşınlar saxlayır, yaxud digər məqsədlər üçün istifadə olunur. Belə olan halda da yanğınsöndürən maşın ehtiyat su çəninə yaxınlaşa bilmir".

### "ELEKTRİK ŞƏBƏKƏLƏRİ İLDƏ BİR DƏFƏ YOXLANILMALIDIR"

Müsahibimiz düşünür ki, ən vacib məqam insanların məlumatlandırılması və xəbərdar edilməsidir: "Yanğın təhlükəsizliyi məsələsinə binanı idarə edən MTK-lar ciddi yanaşmalıdır. Sakinlər özləri də bunu tələb etməlidirlər. Elektrik şəbəkələrində ildə bir dəfə ixtisaslaşmış müəssisə ilə qurumlar tərəfindən yoxlamalar həyata keçirilməlidir. Sakinlərə çoxmənzilli binalarda yanğın baş verdikdə necə davranmaq lazım olduğu, hansı təxliyə yolları ilə təhlükəsiz əraziyə keçid edilməli olduğu haqqında məlumatlar verilməlidir".

# MÜASİR DÖVRÜN BƏLASI

Piylənmə dövrün xəstəliyidir və müalicəsi də mümkündür. Əgər bu problemə dırnaqarası baxılsa yorğunluq, yuxusuzluq və ən nəhayət xərçəngə də yol açır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Müasir dövrün ən aktual xəstəliklərindən biri də piylənmədir. Bu gün dünyada piylənmədən əziyyət çəkən insanların sayı bir milyarddan çoxdur və hər il təxminən üç milyon insan piylənmənin yaratdığı fəsadlar səbəbindən həyatını itirir. "Global İndex" dünyada artıq çəkidən əziyyət çəkən ölkələrin siyahısını açıqlayıb. Araşdırmaya görə, Kuk adalarında əhalinin 69,8%, Nauruda 58,1%, Kiribatidə 56,7, Küveytdə 43,8%, ABŞ-də 42,7%, Meksikada 36,9%, Misirdə 35,7%, Yeni Zelandiyada 34,3%, Argentinada 32,4%, Avstraliyada 31,3%-i piylənmədən əziyyət çəkir.

Bizim coğrafiyanın da insanları yeyib-içməyə meylli olduqları üçün xəstəlik buralarda da aktualdır. Ətrafımızda artıq çəkidən əziyyət çəkən kifayət qədər insanlarla rastlaşırıq. Üstəlik, köklüyün sağlamlıq əlaməti olduğunu düşünən, övladları güclü olsun deyə çox yedizdirən, kök uşaqların daha şirin, toppuş sayıldığı ölkədə bu xəstəlikdən yan keçmək mümkün deyil.

### METABOLİK SİNDROMLA MÜBARİZƏ APARIRIQ

Respublika Endokrinoloji Mərkəzin həkim endokrinoloqu Lalə Məmmədova da "Kaspi"yə açıqlamasında təsdiqləyir ki, son vaxtlar piylənmə problemi ilə bağlı Mərkəzə müraciət edənlərin sayı artıb. Həkim bildirir ki, artıq çəki ilə bağlı ölkəmizdə də ciddi problemlər var: "Bu gün biz metabolik sindromla ciddi şəkildə mübarizə aparırıq. Bu, müasir dövrün geniş yayılan və ciddi sağlamlıq problemidir. Bu sindrom bir sıra metabolik pozğunluqların bir araya gəlməsi ilə xarakterizə olunur və ürək-damar xəstəlikləri, diabet və yüksək təzyiqə yol açır. Bu sindiromun ən önəmli səbəbi piylənmədir. Yəni biz tək piylənmə ilə mübarizə aparmaqla diabet, yüksək təzyiqi və ürək damar xəstəliklərinin də qarşısını almış oluruq. Metabolik sindromdan qorunmaq üçün erkən müdaxilə və düzgün həyat tərzi vacibdir. Bu səbəbdən də piylənməyə erkən yaşda müdaxilə çox mühümdür".

### ARTIQ ÇƏKİLİ UŞAQLARIN SAYI ARTIB

Həkim deyir ki, artıq çəki probleminin ilkin mərhələsi uşaq yaşlarından başlayır. Ana və nənələrin uşağı daha çox yedizdirməsi, kök uşağın gələcəkdə daha güclü ola biləcəyi düşüncəsi piylənməyə qapı açır: "Son bir neçə ildə artıq çəkili uşaqlarla daha çox rastlaşırıq. Məsələn, bir sinifdə 20-30 şagirddən 4-5-i artıq çəkili olur. O uşaqlarla danışıb, araşdıranda görürük ki, ailədə zob, şəkər, təzyiq xəstəliyi var. Belə davam edərsə, bu uşaqlar da o xəstəliklərlə mübarizə aparmalı olacaq. Ona görə də, piylənməni uşaq vaxtından aşkarlamaq, üstünə düşmək gələcəkdəki sağlamlıq problemlərinin qarşısını alır. Sağlam qidalanma bu məsələdə çox vacibdir".







## BU XƏSTƏLİKDƏN QADINLAR DAHA ÇOX ƏZİYYƏT ÇƏKİRLƏR

Həkim deyir ki, Azərbaycanda piylənmə problemi qadınlarda daha çox rast gəlinir: "Qadınlarımız kişilərdən daha çox artıq çəki, şəkər, təzyiqdən əziyyət çəkirlər. Bu, qadınların orqanizmi ilə bağlıdır".

Statistikaya görə də, həm dünyada, həm də ölkəmizdə uşaq və yeniyetmələr arasında piylənmə daha sürətlə yayılır. Dünyada son 30 ildə yetkinlik yaşına çatmış insanlar arasında piylənmə qadınlarda iki dəfədən çox, kişilərdə təxminən üç dəfə, uşaq və yeniyetmələrdə isə dörd dəfə artıb. Ölkəmizdə 2012-ci ildə piylənmədən əziyyət çəkən uşaqların sayı 1176 olsa da, bu göstərici 2022-ci ildə 91 faiz artaraq 2252-yə çatıb. Son statistikaya əsasən, ölkələr üzrə piylənmənin dərəcələrinə görə respublikamız dünyanın 200 ölkəsi arasında kişilər üzrə 100-cü, qadınlar üzrə isə 65-ci yerdədir.

### "AZ, AMMA TEZ-TEZ YEMƏK DAHA FAYDALIDIR"

Həkim deyir ki, artıq çəkinin qarşısını almaq üçün sağlam qidalanmaq və hər gün yürüş etmək lazımdır: "Ən vacib nüans yeməyin porsiyasının azlığıdır. Çox yemək insan orqanizmində ciddi fəsadlar yaradır. Avropa ölkələrində porsiyaların miqdarı bizim qədər çox deyil. Yeməkdən alınan enerji sərf olunan enerjidən çox olduqda, bu enerji bədəndə yağ kimi saxlanılır. Bu vəziyyət uzun müddətdə davamlı olaraq meydana gəldiyində bədəndəki yağ miqdarı həddindən artıq artır. Düzdür, heç kimə deyə bilmərik "bozbaşın ölçüsünü 300 milliqram et". Amma bir dəfəyə çox yemək, ümumiyyətlə, yeməyin miqdarı artıq çəkidə çox rol oynayır. Az yeyib, tez-tez yemək daha faydalıdır, nəinki bir dəfəyə çox yemək. Bununla yanaşı, çox hərəkət etmək, gün ərzində minimum 20-25 dəqiqə gəzmək lazımdır. Bu, həm xolesterini salır, həm təzyiqi düzəldir, həm də ürək xəstəliklərinin qarşısını alır. Uşaqları fast-food, enerji içkiləri, qazlı sulardan uzaq tutmalıyıq. Yeniyetmə dövrü bu xəstəliyin qarşısının alınması üçün çox vacibdir".

## ARTIQ ÇƏKİ GÜC VƏ SAĞLAMLIQ GÖSTƏRİCİSİ DEYİL

Həkim-diyetoloq Semira Avcı isə deyir ki, ilk altı ay ana südü ilə qidalanmayan uşaqlarda piylənmə probleminə daha tez-tez rast gəlinir: "Araşdırmalar ana südü ilə qidalanmayan uşaqların piylənməyə daha çox meylli olduğunu göstərir".

Diyetoloqun sözlərinə görə, piylənmənin müalicəsinin 70-80 faizi valideynin və pasiyentin, 30 faizi həkimin üzərinə düşür: "Valideynlər övladlarının çəkisini nəzarətdə saxlamalıdırlar. Piylənmə istər böyüklərdə, istərsə də uşaqlarda fizioloji problemlərlə yanaşı, psixoloji problemlərə də yol açır. Piylənmə dövrün xəstəliyidir və müalicəsi də mümkündür. Əgər bu problemə dırnaqarası baxılsa, yorğunluq, yuxusuzluq və ən nəhayət xərçəngə də yol açır. Artıq çəki güc və sağlamlıq göstəricisi deyil, ciddi problemdir".

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı 2030-cu ilədək dünya əhalisinin təxminən yarısının artıq çəki və piylənmədən əziyyət çəkəcəyini proqnozlaşdırır.



Semira Avcı

# “ƏBƏDİ BAHAR ADASI”NDAN REPORTAJ

Əfsanəvi Ronaldonun vətəni Madeyra adası Atlantik okeanında qeyri-adi gözəlliyə malik arxipelaqdır. Ada faunanın ən nadir nümunələri üçün sığınacaq yeri, köç edən quşların vətənidir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

















Madeyra adası haqqında ilk dəfə eşidəndə baharın heç vaxt bitmədiyi bir yer təsəvvür etdim. Adaya çatanda başa düşdüm ki, bu, sadəcə, turist şüarı deyil... Bu torpağa ayaq basdığın ilk andan başqa bir dünyaya qədəm qoyduğunu hiss edirsən.

Hərçənd Bakıdan Portuqaliyanın bu cənnət adasına birbaşa uçuşlar yoxdur, amma ecazkar adanı görmək istəyənlər Bakı-Roma-Madeyra istiqamətində 9 saatlıq uçuşu gözə almalıdırlar.

Təyyarə adanın paytaxtı Funşal şəhərinə - adanın əfsanəvi oğlu Kriştian Ronaldonun adını daşıyan Beynəlxalq Hava Limanına eniş edir. Atlantik okeanı üzərində yerləşən bu hava limanı dünyanın ən təhlükəli 10 hava limanından biridir. Limana enmək üçün pilotlardan xüsusi manevrlər tələb olunur. Bundan sonra turistləri adanın həmişəlik yaddaşda qalacaq heyrətamiz mənzərələri gözləyir. Zarafat deyil, Madeyra son səkkiz ildə Bali, Maldiv adaları və hətta Havay adalarını da qabaqlayaraq, Dünya Səyahət Mükafatlarının “Səyahət üçün ən yaxşı ada” kateqoriyasını ardıcıl olaraq qazanıb.

## İNSAN MÜDAXİLƏSİ GÖRMƏYƏN MEŞƏLƏR

Madeyra Atlantik okeanında qeyri-adi gözəlliyə malik arxipelaqdır. Coğrafi baxımdan ada Portuqaliyaya aiddir, lakin Afrika sahilləri ilə sıx təmasdadır. Ada başqa yerlərdə rast gəlinməyən faunanın ən nadir nümunələri üçün sığınacaq yeri, köç edən quşların vətənidir. Madeyra insan müdaxiləsi görməyən meşələr və dağlarla əhatə olunub. Elə portuqal dilindən tərcümədə də adanın adı “meşə” və ya “ağac” anlamındadır. Madeyranın dəfnə meşələri YUNESKO siyahısındadır. Adaya “Əbədi bahar adası” da deyirlər.

## YAŞAYIŞ MƏNTƏQƏLƏRİ YALNIZ SAHİL BOYU YERLƏŞİR

Adada yaşayış məntəqələri yalnız sahil boyu yerləşir. Sahəsi olduqca kiçik - cəmi 740 kvadrat kilometrdir, əhalisinin ümumi sayı 300 min nəfərə çatır. “Madeyra adasını unikal edən nədir?” deyə maraqlandıqda yerli sakinlər “Adada ılıq sulu göllər, təmiz qumlu və çınqıllı çimərliklər, möhtəşəm yaşıllıqlar, rahat hava, günəş, müxtəlif flora və fauna turistləri ilboyu gözləyir. Bu, bütün dünyada analoqu olmayan nadir təbii botanika bağıdır. Yer üzündə cənnət axtaranlar üçün Madeyra ideal yerdir”, - deyə cavab verirlər.

Madeyra mətbəxi ilk növbədə balıq və ətdən ibarətdir. Restoranlar fərqli reseptlərlə hazırladıqları dadlı balıq şorbası (5 avro) və balıq növləri (13-26 avro) təklif edirlər. Hər bir restoranın dəniz məhsulları hazırlamaq üçün özünəməxsus və zəngin resepti var.

## “BİZİM RONALDOMUZ”

Madeyrada çoxlu muzeylər var: Tarix muzeyi, Şabalıd Muzeyi, Şərab Muzeyi... Onların ən məşhuru isə Kriştiano Ronaldo Muzeyidir.

Ada sakinləri hamısı öz oğulları ilə fəxr edirlər, “Bizim Ronaldomuz” deyə öyünürlər. Ronaldo adanın qeyri-rəsmi hamisi və yerli “Union Madeira” futbol komandasının rəsmi sponsorudur.

2013-cü ildə açılan Kriştiano Ronaldo və ya “CR7” muzeyi paytaxt Funşal şəhərində yerləşir. Açılış mərasimində Ronaldonun özü, həmçinin Portuqaliya prezidenti iştirak ediblər.

Muzey adaya səyahət edənlərin, hətta futbol haqqında məlumatı olmayanların da əsas ziyarət yeridir. Muzeyin qarşısında braziliyalı heykəltəraş Rikardo Velosa tərəfindən hazırlanmış futbolçunun bürünc abidəsi ucaldılıb. Turistlər öz kumirlərinin heykəlinə toxunmaq fürsətinə sevinirlər. Muzeyin içində azarkeşlər üçün virtual kumirlə şəkil çəkdirməyə imkan verən şərait də var. Muzeydə həmçinin futbol ayaqqabıları və digər xatirə əşyaları satılan geniş mağaza yerləşir.

Muzeyin üstündə futbolçuya məxsus hotel və kafelər var. Hotelin yerləşdiyi meydan muzeyin açılışı zamanı Ronaldonun şərəfinə adlandırılıb.

## RONALDOYA AİD EKSPONATLARLA ZƏNGİN MUZEY

Muzeyin əməkdaşı Linton Ferreira “Biz Ronaldo ilə fəxr edirik”, - deyə futbolçu haqqında sevinclə danışdı: “Ronaldo ildə 1-2 dəfə muzeyə baş çəkir. Keçən il Milad bayramında gəlmişdi. Muzey qardaşı tərəfindən idarə olunur. Ronaldonun anası, bacısı və qardaşı adada yaşayır. Anası ilə birlikdə yaşayan böyük oğlu da muzeyə tez-tez baş çəkir”.

Muzeydə 200-dən çox eksponat var. İdmançının fotoşəkilləri və videoları, mum fiqurları, həmçinin uşaqlıq və gənclik illərində qazandığı mükafatlar nümayiş olunur. Kuboklar, qızıl toplar, medallar, azarkeş məktubları, imzalı formalar, “qızıl butslar” və s. eksponatlar maraq doğurur.

Futbolçunun qazandığı fərdi mükafatların orijinalı və klub mükafatlarının surəti, dövlət təltifləri muzeydə sərgilənir. “Bu, Ronaldonun adını daşıyan rəsmi muzeydir. Səudiyyədə Ronaldoya həsr olunan müvəqqəti muzey də var, amma bu, ilk və yeganə rəsmi muzeydir”, - deyə muzeyin əməkdaşı bildirdi: “Şəxsi əşyaları qardaşı Ronaldodan alaraq muzeyə gətirib. Eksponatların üzərində Ronaldonun imzası var”. Muzey əməkdaşı futbolçunun doğulduğu adaya yardım etdiyini də gizlətmədi: “Ronaldo adaya çox yardım edir, ancaq bunun açıqlanmasını istəmir. O, tarixdə daha çox futbolçu kimi qalmaq istəyir”.

Ronaldonun vətəni turistləri sevgi ilə qarşılayır və yola salır...



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
30 NOYABR ŞƏNBƏ 2024



# “MANÇESTER SİTİ”NİN ÇƏTİN GÜNLƏRİ



**Mövsümə yaxşı başlayan “Mançester Siti” son zamanlar formadan düşüb. Komanda altı oyundur, qələbəyə həsrətdir. Bu perioda ardıcıl beş məğlubiyyət də sığışıb.**

“Mançester Siti” son illər dünya futbolunda hegemonluq edən klublardan biridir. 2008-ci ildə yeni sahiblər gələndən sonra tarixində yeni səhifəyə qədəm qoyan “şəhərlilər” 2016-cı ildə Pep Qvardiolanın baş məşqçi təyin edilməsindən sonra İngiltərədə əzici üstünlüyə yiyələnib. Lakin son zamanlar komanda eniş dövrünü yaşayır. Bu vəziyyət nəinki komandanın mövsümlük perspektivinə, həm də onların hegemon reputasiyasına təsir edir.

### ARDICIL BEŞ MƏĞLUBİYYƏT VƏ ANTİREKORD

Mövsümə yaxşı başlayan “Mançester Siti” son zamanlar formadan düşüb. Komanda altı oyundur, qələbəyə həsrətdir. Hər şey İngiltərə Liqa Kubokunda “Tottenhem”ə 1:2 hesablı yenilgi ilə başladı. Ardınca “Bornmut”a eyni hesablı məğlubiyyəti ÇL-də “Sportinq” səfərində 1:4-lük darmadağın izlədi. Komanda Premyer Liqanın son iki turunda da uduzub. ÇL-in 5-ci turunda isə “mavilər” Niderland “Feyenord”u ilə qarşılaşmada 3:0 hesablı üstünlüyü əldən verərək yekunda bir xala razılaşdı.

Bu, İngiltərə futbolunda antirekordun təkrarıdır. Sonuncu dəfə 56 il əvvəl “Çelsi” ardıcıl beş oyunda uduzan çempion kimi “tarixə düşmüşdü”. Qvardiola isə 17 illik məşqçilik karyerasında ilk dəfə belə aqibətlə üzləşib.

### YANLIŞ HEYƏT QURUCULUĞU VƏ ZƏDƏ EPİDEMİYASI

Son illərdə “Mançester Siti”nin uğurlarını təmin edən əsas sütunlardan biri oyunçuların keyfiyyətidir. Qvardiolanın əlində həmişə ulduz və onun taktiki tələblərinə uyğun futbolçular cəmləşib. Lakin ötən yay “Mançester Siti” uğurlu transfer periodu keçirmədi. Təkcə Savinyo və “Barselona”dan qayıdan İlkay Gündoğan heyətə cəlb edildi və Erlinq Holanda əsas alternativ sayılan Xulian Alvares “Atletiko”ya satıldı. Lakin argentinalının boşluğu doldurulmadı. Beləliklə, “Mançester Siti” mövsümə nisbətən məhdud heyətlə başlamaq məcburiyyətində qaldı. Hansı ki, sonradan zədələrlə bunun ağrısı hiss olunmağa başlandı. Xüsusən, Kevin de Bruyne və Rodrinin sıradan çıxması çatışmazlıqları üzə çıxardı. Düzdür, de Bruyne artıq sağalıb, lakin o, əvvəlki formasından çox uzaqdır.

Rodri problemi isə daha böyükdür. “Qızıl top”un son sahibi “Arsenal”la qarşılaşmada aldığı zədə səbəbindən mövsümü erkən başa vurmalı olub. Beşinci turdakı həmin matçdan sonra komandanın oyununda problemlər baş qaldırıb. Araşdırmalar göstərir ki, “Mançester Siti” Rodrinin olmadığı görüşlərdə həm hücum quruculuğunda, həm müdafiədə ciddi problemlər yaşayır. De Bruyne isə rəqib müdafiənin yarılmasında açar oyunçu rolunu oynayırdı və onun performansının aşağı düşməsi məhsuldarlığa təsirsiz ötüşməyib. Onlardan əlavə də qısamüddətli və uzunmüddətli bir sıra zədələr komanda üçün problemə çevrilib. Əsas oyun üslubunun zəifləməsi ilə rəqiblər üçün fürsətlər yaranıb ki, onlar da bundan maksimum yararlana bilirlər.

## FƏRDİ PERFORMANS PROBLEMLƏRİ, MENTAL YORĞUNLUQ

Holand müasir dövrün ən yaxşı hücumçularından hesab olunsa da, son zamanlar formasından uzaqdır. Fil Foden və Bernardu Silva de Bruynenin yoxluğunda daha böyük məsuliyyət daşımalı olsalar da, görünür, bu yükün altında əzilirlər. İlkay Gündoğan isə qayıdışından sonra əvvəlki səviyyədə çıxış edə bilmir.

Qvardiola mövsümdən əvvəl üçlü müdafiə planları qursa da, zədələr onun yenidən dördlü sistemə qayıtmasına səbəb olub. Bu isə artıq rəqiblər tərəfindən tam analiz edilib. İrəlidə qurulan müdafiə xətti rəqiblərə keçid oyununda yaxşı imkanlar yaradır. Rodrinin yoxluğu isə bu şəraiti daha da münbitləşdirir. Holandın neytrallaşdırılması, orta xətdəki yaradıcılıq çatışmazlığı “şəhərlilər”in oyununun qısırlaşması ilə nəticələnib. Düzdür, komanda pis oynamır, lakin meydanda istədiyini edən əvvəlki “Mançester Siti” yoxdur.



RODRİ

“Mançester Siti”nin enişində yaşıl qazondakı amillərlə yanaşı meydandan kənar proseslərin də təsiri az deyil. Uzun illərdir Pep Qvardiola ilə birgə çalışan Çiki Begiristayn mövsümün sonunda klubdakı idman direktoru postunu tərk edəcək. Qvardiolanın da komandadan gedəcəyi ilə bağlı xəbərlər dolaşırdı. Lakin yekunda Qvardiola daha bir illik yeni müqavilə imzaladı.

Klubda problemə səbəb olan daha bir məqam maliyyə maxinasiyaları ittihamlarıdır. Digər tərəfdən, keçmiş uğurlar bəzən komandalarda doyma hissi yaradır. Son illər bütün titulları əldə edən Qvardiola və komandasının da bu vəziyyətdən xali olmadığı görünür.

12 turdan sonra “Mançester Siti” Premyer Liqanın lideri “Liverpul”dan doqquz xal geri düşüb. Çempionlar Liqasında isə komanda ilk 24-lüyə düşmək uğrunda mübarizəsini davam etdirir. Əvvəllər də “şəhərlilər” belə çətinliklərlə üzləşib və geridönüş etməyi bacarıblar. Qvardiola və heyəti bu vəziyyəti analiz edərək uyğun həllər tapmaq üçün kifayət qədər təcrübəyə malikdir. İndiki məqamda bu məğlubiyyətlər “Mançester Siti” üçün bir xəbərdarlıq siqnalı kimi qəbul edilməlidir. Komandanın reaksiyası onların çempionluq iddialarını qoruyub-qorumayacağını müəyyən edəcək.